RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 96 (9841) 11 may 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İLHAM ƏLİYEV azad etdiyi Ağdamı sürətlə və böyük zövqlə bərpa edir



- Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.
- Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır.
- Ulu Öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əsəridir.
- Böhranlı vəziyyətdə - daxili çəkişmələr, müxtəlif bölgələrimizdə xoşagəlməz hadisələr baş verdiyi bir dövrdə xalqın tələbi ilə Ulu Öndərin hakimiyyətə gəlməsi bizim üçün nicat yolunu açdı və o vaxtdan bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir.
- O vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi. Ağır bir qərar idi. Torpaqlarımızın böyük hissəsi işğal altında idi, bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı. Ancaq müharibə dayanmasaydı, biz daha böyük faciə ilə üz-üzə qala bilərdik. Bu, çox müdrik, amma çətin qərar idi.
- Bu gün azad Qarabağda sizin qarşınızda çıxış etmək böyük xoşbəxtlikdir. Bu gün Qarabağ dirçəlir, bərpa edilir. İkinci Qarabağ müharibəsindən keçən dörd il yarım ərzində quruculuq işləri göz qabağındadır. O cümlədən Ağdam şəhərində də bunu görmək mümkündür.
- Ermənistanı faktiki olaraq öz işğalçılıq siyasətində daha da gücləndirirdi. Ancaq onlar bir şeyi hesablaya bilməmişlər: o da Azərbaycan xalqının iradəsi, milli ruhu, xalqımızın əyilməz ruhu və bu torpağa olan bağlılığımız.
- Biz "öldü var, döndü yoxdur" şüarı ilə yaşayırdıq və 44 günlük Vətən müharibəsi həm peşəkarlıq, həm qəhrəmanlıq, həm milli ruh salnaməsidir. Bu, bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi. Onu göstərdi ki, Azərbaycan xalqı mütləq və tam qələbə qazanmaq üçün öz canından keçməyə hazırdır.
- Siyasi iradə, iqtisadi güc, müstəqil siyasət, güclü Ordu, vətənpərvərlik və gənc nəsil - milli ruhda tərbiyə olunan gənc nəsil.
- Müharibədə iştirak edənlərin əksəriyyəti işğal dövründə doğulmuş insanlar idi. Onları doğma torpağa çəkən o tarixi bağlar - bütün bu və digər amillər bizim Qələbəmizi şərtləndirdi və biz mütləq və tam Qələbə qazandıq.
- 2023-cü il sentyabrın 20-də Azərbaycanın dövlət suverenliyi tam bərpa edildi və 30 il ərzində qanunsuz fəaliyyət göstərən dırnaqarası "Dağlıq Qarabağ Respublikası" artıq tarixin zibilxanasına göndərildi.
- Ağdam-Xankəndi-Şuşa yolu, dəmir yolu, infrastruktur layihələri, tarixi abidələrimizin bərpası - birinci bərpa edilmiş bina Ağdam Cümə məscidi idi. İndi Qiyaslı məscidində bərpa işləri aparılır. Yaşayış kompleksləri inşa edilir, iki mehmanxana inşa edilib. İmarət kompleksi bərpa edilib, Xaçınçay su anbarı əkin sahələrini, torpaqları suvarma suyu ilə təmin etmək üçün fəaliyyətə başlayır və bir çox başqa layihələr icra edilir. Bunlar təkcə Ağdam rayonuna aiddir.
- Bir fikrimiz də var. Onu ilk dəfə mən ictimaiyyətlə bölüşürəm. Biz Şuşanı Xankəndi ilə birləşdirən "Kanat yolu" layihəsi üzərində işləyirik. Onu da bildirməliyəm ki, Laçın şəhərində kanat yolunun tikintisinə yəqin ki, bu il başlanılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Ağdama səfər ediblər.

Səfər çərçivəsində Prezident İlham Əliyev Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin, Ağdam rayonunun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edib.

Prezident İlham Əliyev Ağdamın Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada, eyni zamanda Kəngərli kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olub.

Dövlət başçısı daha sonra Ağdam rayonunun Kəngərli kənd tam orta məktəbinin binasının və Kəngərli kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

Prezident İlham Əliyev həmin gün Ağdam rayonunun Kəngərli kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub, Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.

2-7

## Birinci vitse-prezident Mehriban Əliyeva Heydər Əliyevin doğum günü münasibətilə paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin doğum günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Heydər Əliyev - 102. Dahi şəxsiyyətin nurlu xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".

## Ulu Öndər amallarından Böyük Qayıdışa



31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimindəki çıxışında Heydər Əliyev siyasətini davam etdirəcəyini bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev söyləmişdi: "Bilirsiniz ki, neft fondundan ayrılan vəsait ilk növbədə Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab Prezident Heydər Əliyevin fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam etdiriləcəkdir. Biz gələcəkdə də bu məsələyə böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar".

Sözügedən tarixdəki andiçmə mərasimindəki nitqində Prezident İlham Əliyev həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmiz üçün ən ağır problem olduğunu bildirmiş və onun yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna biləcəyini bəyan etmişdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir…

10

**Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri**

# İLHAM ƏLİYEV azad etdiyi Ağdamı sürətlə və böyük zövqlə bərpa edir

## Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov dövlətimizin başçısına əvvəlcə "Bərdə-Ağdam dəmir yolu xətti" layihəsi, Bərdə-Ağdam-Xankəndi dəmir yolunun tikintisi, Xankəndi dəmir yolu və avtovağzal kompleksi barədə məlumat verdilər.

Qeyd edildi ki, Ağdamın müasir şəhər statusuna uyğun inkişafına xidmət edən strateji infrastruktur layihəsi olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək.

Ərazisi 8 hektara yaxın olan bu infrastruktur obyektində bütün zəruri otaqlar, həmçinin gözləmə zalları, bilet kassaları, kitabxana, mağazalar, əyləncə zonaları, restoran və istirahət guşələri yaradılıb.

Sərnişinlərin həm qatar perronuna, həm də avtobuslar üçün nəzərdə tutulmuş dayanacaqlara rahat keçidi təmin olunub.

Kompleksin ərazisində, həmçinin müxtəlif növ nəqliyyat vasitələrinin servis binaları və sərnişin platforması tikilib. Ərazidə fərdi, orta və iritutumlu nəqliyyat vasitələri üçün yerüstü avtodayanacaqlar, şəhərlərarası və rayondaxili marşrutlar üzrə avtobuslar üçün perronlar, velosiped dayanacaqları, park və elektromobillər üçün elektrik doldurma məntəqəsi də yaradılıb.

Sonra Bərdə-Ağdam dəmir yolu xətti ilə ilk rəmzi sərnişin qatarı yola salındı.

Qeyd edək ki, işğaldan azad olunmuş rayonlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi bu ərazilərimizdə mühüm yol-nəqliyyat layihələrinin icrasına da xüsusi diqqət yetirilir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi bölgədə ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, rayonun sosial-iqtisadi dirçəlişinə və regionlararası əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın digər şəhər və rayonlara rahat şəkildə səfər etməsində böyük rol oynayacaq, ümumilikdə Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə xidmət edəcək. Eyni zamanda bu cür mühüm infrastruktur layihəsinin həyata keçirilməsi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə nəqliyyat sahəsində görülən işlərin ardıcıl və yüksək keyfiyyətlə davam etdiyinin bariz nümunəsidir.
















## Prezident İlham Əliyev Ağdam rayonunun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına burada yaradılmış şərait barədə məlumat verdi.

Qeyd edildi ki, işğaldan azad olunmuş digər ərazilərdəki kimi, Ağdam rayonunda da genişmiqyaslı quruculuq işləri aparılır. Bu işlərin davam etdiyi yerlərdən biri də rayonun Kəngərli kəndidir. Şəhər mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub.

Kəngərli kəndi 2544 nəfər üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Bu kənddə də əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri

# İLHAM ƏLİYEV azad etdiyi Ağdamı sürətlə və böyük zövqlə bərpa edir

## Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada yaradılan şəraitlə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdamın Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, burada əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına imkan yaranacaq. Binada müxtəlif tədbirlərin keçiriləcəyi iclas zalı və işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün iş otaqları yaradılıb.

## Prezident İlham Əliyev Kəngərli kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olub.**

AZƏRTAC xəbər verir ki, ikimərtəbəli mərkəzdəki otaqlarda rəqs və digər dərnəklər fəaliyyət göstərəcək. Binadakı zalda əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin, eyni zamanda, gənclərin toplantı və görüşlərinin keçirilməsi üçün hərtərəfli şərait var.








## Kəngərli kənd tam orta məktəbinin binası istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kənd tam orta məktəbinin binasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlət başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 30 sinif otağı olan 484 şagird yerlik məktəbdə təhsil prosesinin müasir səviyyədə təşkili üçün lazımi şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada biologiya, kimya və fizika laboratoriyaları, informatika, çağırışaqədərki hərbi hazırlıq kabinetləri, kitabxana, akt və idman zalları, yeməkxana mövcuddur.

Təhsil ocağının ərazisində idman meydançası inşa olunub. Bu meydançadan şagirdlərlə yanaşı, dərsdənkənar saatlarda kənd əhalisi də istifadə edə biləcək. Ərazidə oyun və istirahət sahələri yaradılıb, yaşıllıqlar salınıb.

Qeyd edək ki, kənddə inşa olunmuş bir çox qeyri-yaşayış binasının, o cümlədən məktəb binasının damında da günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik ehtiyacları təmin ediləcək.

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət göstərilir. Yeni istifadəyə verilən Kəngərli tam orta məktəbi bunun daha bir nümunəsidir.





## Ağdamın Kəngərli kəndində körpələr evi-uşaq bağçasının açılışı olub









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Kəngərli kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.**

Dövlət başçısına məlumat verildi ki, müasir standartlara uyğun inşa edilmiş 120 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların sağlam mənəvi və fiziki mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 6 qrup fəaliyyət göstərəcək.

Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, geniş abadlıq işləri görülüb.

Ölkəmizdə yeni uşaq müəssisələrinin yaradılması prosesi işğaldan azad olunmuş ərazilərimizdə də uğurla davam edir. Həyata keçirilən bu layihələr həmin ərazilərimizə köçən uşaqların asudə vaxtlarının səmərəli təşkili və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərin uğurlu nəticələrindəndir.

## Prezident İlham Əliyev Kəngərli kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, birinci mərhələ üzrə buraya 1279 nəfərin köçürülməsi planlaşdırılır. Artıq 292 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır.

Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb.



◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri

# İLHAM ƏLİYEV azad etdiyi Ağdamı sürətlə və böyük zövqlə bərpa edir

## Prezident İlham Əliyev Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib.**









AZƏRTAC xəbər verir ki, kənd sakinlərini salamlayan Prezident **İlham ƏLİYEV dedi:** Kəngərliyə xoş gəlmisiniz.

**Sakinlər:** Sağ olun. Bu günün qəhrəmanı, Siz xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Sizi təbrik edirəm, Kəngərliyə həyat qayıdır, Kəngərli sakinləri artıq qayıdır, böyük xoşbəxtlikdir, tarixi hadisədir. Uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq, əlbəttə ki, böyük xoşbəxtlikdir. Bu münasibətlə sizi təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Siz uzun illər ağır şəraitdə - ölkəmizin müxtəlif yerlərində yararsız evlərdə, yataqxanalarda, uşaq bağçalarında, müəyyən müddət isə çadır şəhərciklərində yaşamısınız. Bu gün isə gözəl kəndin timsalında yenilənən Azərbaycanı görürük, bərpa olunan Qarabağı görürük. Göstərirk ki, bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir. Ancaq bu torpağın sahibi bu torpaqda qurub-yaradır. Mənfur düşmən bütün bu bölgəni viran qoymuşdu. Ağdam rayonunda bir dənə də salamat bina qalmamışdır. Şəhər, bütün kəndlər tamamilə yerlə-yeksan edilmişdir. Təkcə Ağdamda yox, demək olar ki, o vaxt işğal altında olan bütün torpaqlarda Ermənistan dövləti tərəfindən məqsədyönlü siyasət aparılırdı ki, heç vaxt azərbaycanlılar bu bölgəyə qayıtmasınlar. Onlar istəyirdilər bu torpaqları əbədi işğal altında saxlasınlar. Onlara mənəvi və maddi dəstək verən bəzi ölkələr də onlarla həmrəy idi. Amma onlar bir şeyi unudurdular ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, Azərbaycan vətəndaşları heç vaxt öz doğma torpaqlarını unutmayacaq və Azərbaycan dövləti ayağa qalxacaq, güc toplayacaq və düşməni öz torpağından qovacaq. Bunu onlar hesablaya bilməmişdilər.

Bütün bu əzablı illər arxada qaldı. Siz indi öz doğma torpağınıza qayıdırsınız və qayıtmısınız, sizin üçün gözəl şərait yaradılıb. Kəngərli kəndi göz oxşayır. Kəndin bərpasının, yenidən qurulmasının birinci mərhələsidir, 292 ev hazırdır, sizin ixtiyarınıza verilir. İkinci mərhələdə daha çox evlər tikiləcək. Hər cür şərait var. Gözəl evlər, işıq, qaz, su, kanalizasiya sistemləri, məktəb, uşaq bağçası, market, tibb məntəqəsi, hətta bazar kompleksi - hər şey var. Əkin üçün yerlər ayrılacaq. İndi bəzi torpaqlarda artıq minatəmizləmə işləri başa çatıb. Mən göstəriş vermişəm, sakinlərə torpaq sahələri də veriləcək. Həyətyanı sahə də 12 sotdur. Orada da əkib-becərmək mümkündür. Yəni, həyat qayıdır, ədalət zəfər çalıb, ədalətin təntənəsidir. Biz bunun şahidiyik.

Ağdam şəhəri də artıq ərsəyə gəlir. Bu gün səhər Ağdam Vağzal Kompleksinin açılışını etdim. Bu tədbirdən sonra Ağdam Muğam Mərkəzinin açılışı olacaq. Muğam Mərkəzini Ağdamda ilk layihələrdən biri kimi inşa etməyimiz bizim mənəvi köklərə bağlı olduğumuzu göstərir. Yəni, bizi millət kimi, xalq kimi saxlayan bizim musiqimiz, dilimiz və əyilməz ruhumuz olub.

Köçkünlər ən çətin şəraitdə yaşayıblar. Siz bilirsiniz ki, işğal dövründə köçkünlərlə mənim çoxsaylı görüşlərim olub, həm çadır şəhərciklərində, - onlara söz vermişdim ki, birinci prezidentlik dövrümdə bir dənə də çadır şəhərciyi qalmayacaq və artıq 2007-ci ildə bir dənə də qalmamışdı, - həm də yeni salınmış qəsəbələrdə, qəsəbələrin açılışında. Biz 300 minə yaxın ovaxtkı köçkünü gözəl evlərlə təmin etmişdik. O görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, torpaqlar azad olunandan sonra sizin üçün Qarabağda daha gözəl şərait yaradacağıq.

**Sakin:** Bu günə çox şükür.

**Prezident İlham ƏLİYEV:** Bugünkü mərasim o sözlərin, necə deyərlər, möhürüdür. Bilirəm, sizdə də, bizdə də - bütün Azərbaycan xalqında heç vaxt şübhə olmayıb ki, biz öz torpaqlarımıza qayıdacağıq. Amma çox möhtəşəm qayıtdıq. 44 gün ərzində düşməni böyrü üstə qoyduq. Ondan sonra da 23 saat ərzində, bəlkə də daha da tez separatçıların kökünü tamamilə kəsdik. Siz - yaşlı nəslin nümayəndələri sovet dövrünü xatırlayırsınız. O vaxt sizin yanınızda yaşayan, bizim torpaqlarımıza çar Rusiyası tərəfindən köçürülən ermənilər bizə, xalqımıza, xüsusilə ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətində yaşamış azərbaycanlılara mənfi münasibət göstərirdilər, həm Xocalıda, həm Şuşada onlar mənəvi əzab çəkirdilər.

Bu gün isə Azərbaycan vətəndaşı hər bir qarış torpağının sahibidir, hər yerdə yaşayır, yaşayacaq. Sürətli bərpa işləri onu göstərir ki, tezliklə bütün keçmiş köçkünlər öz torpaqlarına qayıdacaqlar.

Kəngərli kəndi bizim bərpa etdiyimiz sayca 14-cü yaşayış məntəqəsidir. Ağdam rayonunun isə ikinci. Birinci Sarıcalı, indi Kəngərli. Xıdırlı kəndi də demək olar ki, açılışa hazırdır. Yaxın aylarda orada da həyat qaynayacaq. Yəni, siz burada darıxmayacaqsınız, qohum-əqrəba, dost, tanış - hamınız birlikdə bu bölgəni - Qarabağı quracaqsınız, hamımız birlikdə quracağıq.

Sizi təbrik edirəm, cansağlığı arzulayıram. Burada xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun.

❖ ❖ ❖

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

❖ ❖ ❖

**Sakin:** Möhtərəm Prezident, bir arzum var və Sizə çatdırmaq istəyirəm.

**Prezident İlham ƏLİYEV:** Buyurun.

**Sakin:** Əlbəttə ki, çətin dövrdə yaşamışıq və bugünkü gözəl həyatı da görürük. Müqayisə aparanda düşünürəm ki, buradakılar hər kəsin arzusudur, arzu edirəm ki, ömrünüz uzun olsun, canınız sağ olsun və nə qədər ömrünüz var, hakimiyyətdə olun. Çünki biz inanmırıq ki, Ulu Öndərdən sonra Azərbaycanı Sizdən başqa kimsə bu vəziyyətdə idarə etsin. Sağ olun, var olun, daim hakimiyyətdə olun.

**Sakinlər:** Amin!

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox sağ olun.

**Sakin:** Hörmətli Prezident, icazə verin, mən ürək sözümü deyim.

**Prezident İlham ƏLİYEV:** Bəli, əlbəttə, buyurun. Kimin sözü varsa, buyursun.

**Sakin:** Mən Kəngərlinin yaşlı sakiniyəm, 76 yaşım var. Allah Heydər Əliyevə qəni-qəni rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Sakin:** Onun fəaliyyəti dövründə mən ən yaxşı, mükəmməl müəllimlik dövrümü yaşamışam. Əməkdar müəllim kimi iş təcrübəm respublikada yayılıb və bu gün fəxr edirəm ki, onun varisinin, bu günün qəhrəmanının qarşısında mən söz demək qüruru keçirirəm. Allah Sizə cansağlığı versin.

**Sakinlər:** Amin!

**Sakin:** Müqəddəs kitabımız "Qurani-Kərim"də belə bir ayə var: "Salam olsun doğru yolun yolçularına". Doğru yolun yolçusu olmaq böyük şərəfdir. Bu şərəfi Siz çox ləyaqətlə yerinə yetirdiniz, tarix yazdınız, möcüzələr qurdunuz, bütöv Azərbaycanı. Eşq olsun Sizə!

**Prezident İlham ƏLİYEV:** Hamımız birlikdə bunu etdik, hamımız birlikdə!

**Sakin:** Mən bir ana məhəbbəti ilə, müəllim şəfqəti ilə bu doğru yolun yolçusuna, bu günümüzün qəhrəmanına Dədə Qorqud qopuzundan qopub gələn bir el alqışı diləmək istəyirəm. Arxanızda el dayansın, "El gücü, sel gücü" deyiblər. Nəsibiniz el alqışı olsun. El alqışı kəsərli olar və bir də qüdrətli Allahın gözəl kəlamı ilə salam olsun doğru yolun yolçusuna.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Sizə böyük uğurlar, ailə səadəti və ailəlikcə Azərbaycanın, cənnətə döndərdiyiniz Azərbaycanın, bütöv Azərbaycanın, bütün güllü-çiçəkli dağlarında, bağlarında, sularında gəzdikcə Allah, Xudavəndi-aləm Sizə uzun ömür, cansağlığı və alın açıqlığı versin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Həmişə qalib "dəmir yumruq" yerindədir, Qarabağ Azərbaycandır!

**Prezident İlham ƏLİYEV:** Yerindədir, çox sağ olun.

**Sakin:** Cənab Prezident, Ağdamın Pirhəsənli Kəngərlisinə xoş gəlmisiniz. Biz bu yolu çox gözləyirdik və Sizin apardığınız məqsədyönlü siyasət nəticəsində 44 gün ərzində torpaqlar azad olundu, biz yaşlı nəslin ömrünü göydə Allah uzatdı, yerdə Siz. Bu kəndin 2600 nəfər əhalisi var. Başda mən olmaqla, əli silah tutanların hamısı Sizin əsgərinizdir.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Allah Sizi qorusun, Allah Sizin kölgənizi Azərbaycan xalqının başının üstündən əskik etməsin.

**Sakinlər:** Amin.

**Sakin:** Siz Allahın bizə göndərdiyi bir əmanətsiniz. Allah Sizi qorusun!

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Yoldaşım da odur, bir xatirə şəkli çəkdirək.

**Prezident İlham ƏLİYEV:** Gəlsin, hamımız çəkdirək.

**Sakin:** "Qarabağ şikəstəsi" deyərdim, feyzyab olun.

**Prezident İlham ƏLİYEV:** "Qarabağ şikəstəsi" bu gün Muğam Mərkəzinin açılışında səslənəcək.

**Sakinlər:** Allah qoysa. Allah Sizi həmişə toyda, bayramda - belə məclislərdə eləsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Sonra şəkillər çəkdirildi.

❖ ❖ ❖

**Sakin:** Möhtərəm Prezident, Qarabağ Universitetinin ilk tələbəsidir.

**Digər sakin:** Bu, mənim nəvəmdir.

**Prezident İlham ƏLİYEV:** İdmançıdır, hansı idman növü?

**İdmançı:** Alpaqut Turan Türk döyüş sənəti, əlbəyaxa döyüş.

**Sakin:** Dörd dəfə dünya çempionu olub.

**Prezident İlham ƏLİYEV:** Maşallah.

**Sakin:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** İlham müəllim, mənim bir ürək sözüm də var.

**Prezident İlham ƏLİYEV:** Buyurun, əlbəttə.

**Sakin:** Bu gün bu möhtəşəmliyə rəng verən Ulu Öndərimiz Heydər Əliyevin doğum günüdür. Allah Sizi qorusun! Onun ruhu bu saat bax, bu təntənəni seyr edir.

**Prezident İlham ƏLİYEV:** Elədir.

**Sakin:** Onun vəsiyyəti yerinə yetirilmişdir, şəhidlərin qisası alınmışdır. Allah onlara rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Amin.

**Sakin:** Heydər Əliyev gözümüzün qabağında müdriklikdən müqəddəsliyə ucaldı və müqəddəslər kimi ölümsüzlüyə qovuşdu, göylərə çəkildi. Onun ruhu həmişə bu müvəffəqiyyətləri seyr edir, bilir, fəxr edir. Onun Sizin kimi varisi var, Allah qorusun. Onun vəsiyyətini bir övlad kimi, Prezident kimi yerinə yetirdiniz. Üç-dörd ay bundan əvvəl buraya gəldim. Hələ onda bünövrə qoyulmamışdı. Dağıdılmış evlərə, daş-kəsəyə baxanda fikirləşdim, bunu necə təmizləmək olar ki, burada ev tikəsən. Budur, Kəngərli gülzara çevrilib. İndi Kəngərlidə mənim kimi yaşlı tək-tük adam var. Hazırda buraya köçən adamların demək olar ki, hamısı mənim şagirdim olub. Şəhidlərimizə Allah rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Sakin:** Kəngərlilər adından Sizə uzun ömür, cansağlığı, ailə səadəti arzulayıram.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Həmişə fikir vermişik, başqa prezidentlər çıxışlarını vərəqdən oxuyurlar, Siz isə şifahi danışırsınız. Həmişə başın ucadır, alnın açıqdır, bütöv Azərbaycan yaratdın, möcüzələr yaratdın qardaş, möcüzə, Allah qorusun!

**Sakinlər:** Amin.

*Ardı 5-ci səh.*

◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri

# İLHAM ƏLİYEV azad etdiyi Ağdamı sürətlə və böyük zövqlə bərpa edir

## Prezident İlham Əliyev Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib

*Əvvəli 4-cü səh.*

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Mayın 10-u, təbii ki, mənim üçün, Azərbaycan xalqı üçün əziz bir gündür. Hesab etdim ki, mən məhz bu gün burada olmalıyam, mayın 10-da biz bu mərasimi keçirməliyik - həm Kəngərli kəndinin, həm Muğam Mərkəzinin açılışını. Əlbəttə, başqa gün də ola bilərdi. Ancaq siz də tamamilə haqlısınız. Ulu Öndər Heydər Əliyev başda olmaqla bizim bu günümüzü görməyənlərin hamısının ruhları bu gün bu dağlarda, bu səmada dolaşır. Onların ruhlarını şad elədik. Allah şəhidlərimizə rəhmət eləsin.

**Sakinlər:** Amin.

**Prezident İlham ƏLİYEV:** Sizin kimi müəllimlər igid gənclər yetişdirmisiniz. O gənclər ki, gedib sinələrini qabağa verib torpaqlarımızı düşməndən azad etdilər. Bu, tarixi hadisədir və bugünkü dünyada gedən prosesləri hər birimiz izləyirik. İndi internet dövrüdür, hər bir məlumatı dərhal tapmaq mümkündür. Bizim qədər qələbəyə layiq olan ikinci xalq bəlkə də yox idi. Çünki biz 30 il bu günü gözləyirdik. Nəinki gözləyirdik, biz hər gün hər birimiz o günü yaxınlaşdırırdıq. Prezident, Ali Baş Komandan kimi mənim, siz vətəndaşların, ordumuzun, müəssisələrdə çalışanların - bizim hamımızın bütün səyləri, bütün amalı bir ideya uğrunda birləşmişdi: bu torpaqları, doğma diyarımızı mənfur düşməndən azad etmək! Bunun yeganə yolu var idi, ancaq döyüş meydanında. Çünki bütün başqa yolları biz sınadıq, çalışdıq. Nə qədər çalışdıq Ermənistan rəhbərliyini inandıraq ki, bu torpaqlardan öz xoşu ilə getməlidir.




Mən dünən gəldim buraya. Xatırlayırdım, biz 2018-ci ilin noyabr ayında Quzanlıda Muğam Mərkəzi açdıq. O vaxt yadınızdadır, Quzanlını biz Ağdam rayonunun mərkəzi elan etdik. Orada Ağdamdan və digər bölgələrdən olan bizim tanınmış ziyalılarla görüş zamanı demişdim ki, Ermənistan torpaqlarımızı azad etməlidir. Demişdim ki, biz gec-tez ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik, eşitmədilər bizi. Ona görə bizim tarixi Zəfərimiz artıq dünyada bir möcüzə kimi qəbul edilir. Çünki bu, mütləq və tam Qələbədir. Nə o Qələbəyə qədər onilliklər ərzində, nə ondan sonra keçən 4-5 il ərzində mütləq və tam qələbə heç kim tərəfindən qazanılmamışdır. Bunun əsas səbəbi Azərbaycan xalqının əyilməz ruhudur. Bax, mən bunu sizə açıq deyirəm. Hər birimizin payı var. Əlbəttə, Ali Baş Komandan, bütün əməliyyatlara və bütün işlərə rəhbərlik edən şəxs kimi mənim payım da var, təbii olaraq, amma hər birimizin. Çünki xalq arxamda durmasaydı, əgər müharibə dövründə hər hansı bir tərəddüd hiss olunsaydı, yaxud da ki, cəmiyyətdə hər hansı bir fikir ayrılığı olsaydı, bu Qələbəni belə şəraitdə, belə ağır vəziyyətdə qazanmaq mümkün olmazdı. Şəhidlər dəfn olunurdu, şəhidlərin anaları, ataları, yaxınları deyirdilər ki, dayanma. Bilirsiniz bu nədir?!

Xalqımız böyük xalqdır. Biz haqlı olaraq xalqımızla fəxr edirik, sizinlə fəxr edirik. Otuz il əzab-əziyyət içində - çadırda, istidə, soyuqda, vaqonun altında, yataqxanada, uşaq bağçasında yaşamısınız, amma inamınızı, iradənizi itirməmisiniz, belə oğullar yetişdirmisiniz. Onlar Bakıda, Bərdədə, Sumqayıtda yaşayıblar, bu bölgələri heç vaxt görməyiblər, amma gəliblər. Çünki torpaq çəkir. Onlarda vətənpərvərlik hissini sizin kimi analar, müəllimlər, məktəb və ailə formalaşdırıb. Bizi saxlayan bizim dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz və gənc nəsil yetişdirən ailə və məktəb olub.

**Sakin:** Allahın qüdrəti köməyiniz olsun.

**Prezident İlham ƏLİYEV:** Biz bundan sonra ancaq və ancaq qalib xalq kimi yaşayacağıq, bu torpaqlarda əbədi yaşayacağıq və xoşbəxt yaşayacağıq.

**Sakin:** Haqdan yanan çıraq heç vaxt sönməz. Sağ olun.

❖ ❖ ❖

Sakinlərdən biri muğam ifa edir.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Qarabağ bülbüllərindəndir.

**Prezident İlham ƏLİYEV:** Bu gün Muğam Mərkəzinin açılışında da konsert olacaq. Həm Sarıcalıdan, həm Kəngərlidən vətəndaşlar dəvət olunub. Ona görə sizin bəziləriniz orada iştirak edəcəksiniz. Bir daha təbrik edirəm.

**Sakin:** Mənim ürəyimdə bir söz var, oraya qədər deyim. Sizin çox gözəl kəlamınız var. Hər bir vətəndaşın Prezidenti olacağam.

**Prezident İlham ƏLİYEV:** Bəli, onu 2003-cü ildə demişdim.

**Sakin:** Mübarək ad gününüzü xalq arasında keçirirsiniz. Bu gün isə Ulu Öndərimizin - qəbri nurla dolsun - ad günüdür. Eyni zamanda mənim də ad günümdür, sağ olun. Allah Sizə cansağlığı, uzun ömür versin.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm. Sağ olun.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər





**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına və birinci xanıma burada yaradılan şərait barədə məlumat verib.

Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

Mərkəzdə kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb.

Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib. Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mühüm rol oynayacaq.

Qeyd edək ki, muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən görülən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun təşkilatçılığı və dəstəyi ilə bu istiqamətdə respublika və beynəlxalq əhəmiyyətli ənənəvi layihələr həyata keçirilir. Bu layihələrin nəticəsidir ki, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi mədəni irsinin şah əsərləri" siyahısına salınıb.

Sonra dövlət başçısı tədbirdə çıxış edib.

*Ardı 6-cı səh.*

◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri

# İLHAM ƏLİYEV azad etdiyi Ağdamı sürətlə və böyük zövqlə bərpa edir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər






*Əvvəli 5-ci səh.*

### Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, əziz ağdamlılar, bu gün ölkəmizin tarixində çox gözəl bir gündür. Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gözəl tədbirin mayın 10-da keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır. Ulu Öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əseridir. Məhz onun 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu. Vəziyyət çox ağır idi. O günləri yaşayan insanlar bunu çox yaxşı xatırlayırlar. Ölkə demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə özbaşınalıq, xaos, anarxiya hökm sürürdü. İqtisadiyyat iflic vəziyyətdə, torpaqlarımız isə işğal altında idi və işğal davam edirdi. Ermənistan xarici dəstək ilə Azərbaycana qarşı öz işğalçılıq siyasətini həyata keçirirdi. Nizami ordu demək olar ki, yox idi. Belə bir böhranlı vəziyyətdə - daxili çəkişmələr, müxtəlif bölgələrimizdə xoşagəlməz hadisələr baş verdiyi bir dövrdə xalqın tələbi ilə Ulu Öndərin hakimiyyətə gəlməsi bizim üçün nicat yolunu açdı və o vaxtdan bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir.







Otuz iki il ərzində bir çox hadisələr baş vermişdir. Ancaq bütün hadisələrə, bütün çətinliklərə baxmayaraq, biz inkişaf yolumuzdan dönmədik. O vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi. Ağır bir qərar idi. Torpaqlarımızın böyük hissəsi işğal altında idi, bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı. Ancaq müharibə dayanmasaydı, biz daha böyük faciə ilə üz-üzə qala bilərdik. Bu, çox müdrik, amma çətin qərar idi. Bu, bizə imkan verdi ki, Azərbaycan inkişaf yoluna qədəm qoysun. İmkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın, nizami ordu yaradılsın. Yəni, biz bütün keçmiş tarixə nəzər salarkən, təbii ki, görürük, nə qədər məqsədyönlü, düşünülmüş addımlar atılmışdır. O addımlar ki, bugünkü Azərbaycan reallıqlarını təmin edir.

Əlbəttə, həyat yerində durmur. Son 22 il ərzində dünyada və ölkəmizdə bir çox hadisələr baş vermişdir. Ancaq strateji xətt Ulu Öndər tərəfindən müəyyən edildi və biz o xətdən bir addım kənara atmadıq. Bu gün azad Qarabağda sizin qarşınızda çıxış etmək böyük xoşbəxtlikdir. Bu gün Qarabağ dirçəlir, bərpa edilir. İkinci Qarabağ müharibəsindən keçən dörd il yarım ərzində quruculuq işləri göz qabağındadır. O cümlədən Ağdam şəhərində də bunu görmək mümkündür. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq, bərpa işləri aparılır. İşğal dövründə Ermənistan dövləti məqsədyönlü siyasət apararaq bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir. Buraya və azad olunmuş digər bölgələrə səfər edən xarici qonaqlar öz təəccübünü və bir çox hallarda hiddətini gizlədə bilmirlər. Onlara başa salanda ki, bu dağıntılar müharibə zamanı yox, atəşkəs zamanı törədilmişdir, əlbəttə ki, erməni faşizminin eybəcər sifəti açıq-aydın görünür.

Bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı urbisid törədilmişdir, ekosid törədilmişdir. Erməni faşizmi bu bölgəni daim işğal altında saxlamaq istəyirdi və əfsuslar olsun ki, onların arxasında duran bəzi xarici dövlətlər onlarla həmrəy idi. Açıq olmasa da, gizli kanallarla onlara verilən mesajlar ondan ibarət idi ki, Azərbaycan cürət edib heç vaxt azadlıq müharibəsinə başlamayacaq, biz sizin arxanızdayıq, biz sizə dəstək olacağıq, sizə silah veririk, mənəvi dəstək veririk, sizin üçün mənəvi dayağıq. Bütün bu amillər Ermənistanı faktiki olaraq öz işğalçılıq siyasətində daha da gücləndirirdi. Ancaq onlar bir şeyi hesablaya bilməmişlər: o da Azərbaycan xalqının iradəsi, milli ruhu, xalqımızın əyilməz ruhu və bu torpağa olan bağlılığımız.

İşğal dövründə - 30 il ərzində biz hər gün bu müqəddəs azadlıq gününü yaxınlaşdırırdıq. Hər birimiz öz iş yerində vahid amal uğrunda birləşərək, azadlıq üçün, azadlıq müharibəsi üçün yorulmadan çalışırdıq. Bütün cəmiyyət bir amal uğrunda birləşəndə o cəmiyyət böyük işlərə qadirdir. Heç bir qüvvə xalq qarşısında dura bilməz. Xalqımızın böyüklüyü məhz bundadır. Biz açıq-aydın başa düşürdük və görürdük ki, hansı qüvvələr Ermənistana dəstək verir, hansı qüvvələr onların arxasındadır, hansı qüvvələrlə biz üz-üzə gələ bilərik və gəlmişik də. Amma bu, bizi çəkindirmədi. Artıq biz "öldü var, döndü yoxdur" şüarı ilə yaşayırdıq və 44 günlük Vətən müharibəsi həm peşəkarlıq, həm qəhrəmanlıq, həm milli ruh salnaməsidir. Bu, bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi. Onu göstərdi ki, Azərbaycan xalqı mütləq və tam qələbə qazanmaq üçün öz canından keçməyə hazırdır. Qələbəmizi bir çox amillər şərtləndirdi. Biz son dörd il yarım ərzində bu barədə dəfələrlə danışmışıq, fikirlərimizi bölüşmüşük.

*Ardı 7-ci səh.*

◆ Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri

# İLHAM ƏLİYEV azad etdiyi Ağdamı sürətlə və böyük zövqlə bərpa edir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər

*Əvvəli 6-cı səh.*

Bütün bunlar cəmiyyətdə birmənalı qəbul edilir: siyasi iradə, iqtisadi güc, müstəqil siyasət, güclü ordu, vətənpərvərlik və gənc nəsil - milli ruhda tərbiyə olunan, bu torpaqları heç vaxt görməyən gənc nəsil. Müharibədə iştirak edənlərin əksəriyyəti işğal dövründə doğulmuş insanlar idi. Onları doğma torpağa çəkən o tarixi bağlar - bütün bu və digər amillər bizim Qələbəmizi şərtləndirdi və biz mütləq və tam Qələbə qazandıq. Nə bizdən qabaqkı onilliklər ərzində, nə bizdən sonrakı dörd il yarım ərzində heç kim mütləq və tam Qələbə qazanmamışdır və elə görünür ki, qazanmayacaq. Bunu mən müqayisə üçün demirəm. Amma dünyada hər şey müqayisə ilə ölçülür. Biz 44 gün ərzində hər gün irəli gedirdik, hər gün itkilər verirdik, şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Hər gün yeni uğurlar əldə edirdik, hər gün hansısa kəndləri azad edirdik. Bu, bizə əlavə ruh verirdi, əlavə güc verirdi. Xalqımız tam birləşdi. Bu, mənə Ali Baş Komandan kimi əlavə mənəvi ruh verirdi. Bu, bizim hamımızın Qələbəsidir. Azərbaycan xalqı bu Qələbəni əldə etməklə öz tarixi böyüklüyünü bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, Azərbaycana dünyada olan münasibət, - hətta bizə düşmənçilik edən dairələr, qüvvələr, ölkələr bilirlər ki, biz ləyaqətli xalqıq, hörmətə layiq olan xalqıq və bizimlə hesablaşmaq lazımdır. Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur.

Buraya gələrkən yeddi il əvvəl Quzanlı qəsəbəsində Muğam Mərkəzinin açılışını xatırlayırdım. O vaxt Ağdam şəhəri və rayonun böyük hissəsi işğal altında olduğu üçün biz Quzanlı qəsəbəsini Ağdam rayonunun mərkəzi elan etdik, orada mənim iştirakımla Muğam Mərkəzinin təməli qoyuldu və 2018-ci ilin noyabr ayında açılışı oldu. Mən orada incəsənət xadimləri ilə görüş əsnasında demişdim ki, biz ədalət tələb edirik. Demişdim ki, əgər Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmasa, biz istənilən varianta hazırıq. Ermənistan rəhbərliyi buna məhəl qoymadı. Onlara dəstək olan dairələr onlara pis məsləhət verdilər və Azərbaycan xalqı haqqında yanlış təsəvvür yaradılmışdı. İndi onlar peşmandırlar. O gündən iki il sonra Vətən müharibəsi başladı və cəmi 44 gün ərzində biz tarixi Zəfər çaldıq, Ermənistan kapitulyasiya aktına qol çəkməyə məcbur oldu və Qarabağın əsas hissəsi, böyük hissəsi işğaldan azad edildi. Ancaq biz bilirdik ki, bu, tarixi Qələbə olsa da, ölkə suverenliyi hələ tam bərpa edilməyib. Hələ ki, Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədinə biz nəzarət etmirdik, bəlli olan səbəblərə görə. Əlbəttə ki, biz 2020-ci il noyabrın 10-dan 2023-cü il sentyabrın 20-nə qədər yenə də hər gün, hər saat siyasi, diplomatik, hərbi və digər alətləri işə salaraq bax bu günü - 20 sentyabr gününü yaxınlaşdırırdıq. Nəhayət 2023-cü il sentyabrın 20-də Azərbaycanın dövlət suverenliyi tam bərpa edildi və 30 il ərzində qanunsuz fəaliyyət göstərən dırnaqarası "Dağlıq Qarabağ Respublikası" artıq tarixin zibilxanasına göndərildi.

Bu gün biz azad Qarabağda azad yaşayırıq. Bu gün Ağdam və bütün digər şəhərlərimiz bərpa edilir. Bu gün səhər Ağdam dəmir yolu vağzalının açılışını qeyd etdik. Bakıdan, Gəncədən, digər bölgələrdən Ağdama rahat gəlmək üçün indi gözəl imkanlar var. Eyni zamanda biz Ağdam-Xankəndi dəmir yolunun bərpası istiqamətində işlərə başlamışıq və yəqin ki, bir il yarım, maksimum iki il ərzində Xankəndi şəhərində vağzal kompleksi tikiləcək. Bildiyiniz kimi, artıq Xankəndidə Qarabağ Universiteti fəaliyyət göstərir, 8 mindən çox insan yaşayır və eyni zamanda, Xankəndidən, həmin o vağzal kompleksindən Şuşaya gedən yol qısalır. O yolu da biz qısaldırıq. Həm genişləndiririk, həm qısaldırıq ki, maksimum 10 dəqiqə ərzində Xankəndidən Şuşaya gəlmək mümkün olsun. Bir fikrimiz də var. Onu ilk dəfə mən ictimaiyyətlə bölüşürəm. Biz Şuşanı Xankəndi ilə birləşdirən "Kanat yolu" layihəsi üzərində işləyirik. Onu da bildirməliyəm ki, Laçın şəhərində kanat yolunun tikintisinə yəqin ki, bu il başlanılacaq. Kəlbəcərdə də belə layihə var. Yəni ki, bu, həm turizm baxımından, həm insanların rahat gediş-gəlişi üçün çox gözəl bir vasitə olacaq.

Ağdam-Bərdə avtomobil yolu. İndi Bakıdan gələn qonaqlar o yolla gəliblər. Möhtəşəm bir yoldur. Sovet vaxtında belə yol olmamışdır. Ağdam-Xankəndi-Şuşa yolu, dəmir yolu, infrastruktur layihələri, tarixi abidələrimizin bərpası - birinci bərpa edilmiş bina Ağdam Cümə məscidi idi. İndi Qiyaslı məscidində bərpa işləri aparılır. Yaşayış kompleksləri inşa edilir, iki mehmanxana inşa edilib. İmarət kompleksi bərpa edilib, Xaçınçay su anbarı əkin sahələrini, torpaqları suvarma suyu ilə təmin etmək üçün fəaliyyətə başlayır və bir çox başqa layihələr icra edilir. Bunlar təkcə Ağdam rayonuna aiddir. Əgər bütün görülən işlərin miqyasını götürsək, sözün düzü, mən bilmirəm hansı ölkədə hazırda bu miqyasda quruculuq, inkişaf işləri aparılır. Yəni bu, yenə də xalqımızın zəhməti hesabına qazanılan nailiyyətdir. Bütün bunları biz öz hesabımıza edirik və bütün işləri də özümüz planlaşdırırıq. Bütün insanlar həvəslə, zövqlə işləyirlər. Belə gözəl mədəniyyət ocaqları yaradırıq və bu gün burada məndən sonra çıxış edəcək bizim tanınmış ifaçılar öz məharətlərini göstərəcəklər. İstərdim ki, artıq bu gözəl salonda müntəzəm olaraq gözəl muğam bayramları, o cümlədən muğam müsabiqələrinin tədbirləri keçirilsin. Əminəm ki, belə də olacaq.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm, həm bu möhtəşəm Muğam Mərkəzinin açılışı, həm də bizim bütün uğurlarımız, əldə etdiyimiz bütün nailiyyətlər və gələcək nailiyyətlər münasibətilə. Biz müzəffər xalqıq, qalib xalqıq. Öz torpağımızda yaşayırıq. Bir daha sübut etdik ki, bu torpaqların sahibi bizik, çünki biz dağıdan yox, qurub-yaradanıq və bundan sonra da bu torpaqlarda əbədi yaşayacağıq.

Yaşasın Ağdam, yaşasın Azərbaycan!

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışına həsr olunan konsert proqramına baxıblar.

❖ ❖ ❖

Konsertdən sonra dövlətimizin başçısı və birinci xanım incəsənət ustaları və müharibə veteranları ilə söhbət etdilər.

Xalq artisti **Bəyimxanım CAVANŞİROVA-VERDİYEVA:** Bu gün Azərbaycan muğamının təntənəsidir. Bu gün ən gözəl gündür. Doğma Qarabağımızda Ulu Öndərimizin ruhu şaddır. Xatirinizdədirsə, həmişə o, öz çıxışlarında deyərdi ki, biz Qarabağa qayıdacağıq. Bu gün həmin gündür. Ruhu şad olsun. Çox-çox təşəkkür edirik, minnətdarıq Sizə. Var olun hamınız. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Bəyimxanım CAVANŞİROVA-VERDİYEVA:** Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Sizi bir daha təbrik edirəm, həmişə toy-bayram olsun Qarabağda, Azərbaycanın hər bir guşəsində.

**Bəyimxanım CAVANŞİROVA-VERDİYEVA:** Amin. Xalqa ruh verən Sizsiniz. Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Qəhrəmanlarımız da bizimlə bərabərdirlər. Onları alqışlayaq.

Birinci Qarabağ müharibəsi qazisi **Rey KƏRİMOĞLU**: Cənab Prezident, Siz bu millətə sahib çıxdınız. Mən özüm Birinci Qarabağ müharibəsinin qazisiyəm. Amma yiyəmiz olmadı o vaxt. Siz millətə sahib çıxdınız. Sizinlə fəxr edirik. Allah Sizi qorusun. Allah Sizi var eləsin.

Xalq artisti **Ramiz QULİYEV:** Möhtərəm cənab Prezident, əzizimiz, çox gözəl xanım, canımız, ciyərimiz. Siz bizə gözəl bir gün bəxş etdiniz. Cənab Prezident, gözəl bir gündür. Ulu Öndərin 102-ci ildönümü günüdür, ruhu şad olsun. Yüz illər ötsə də Ulu Öndərin xatirəsi yaşayacaq. Necə ki, Qarabağı bu cür düzəltdiniz, yüz illər gəlib gedəcək, dünyanın bütün ölkələri Sizdən nümunə götürəcək, bu gün də götürür. Muğam da var, xalqımız da var, Siz də varsınız. Sizi bağrıma basıram. Çox sağ olun, var olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

Qazi **Qəhrəman HÜSEYNOV:** Cənab Prezident, ömrümün bu çağında Allaha yalvarmışam ki, Sizinlə görüşə bilim. Bir dəqiqə Sizinlə görüşərdim.

**Prezident İlham ƏLİYEV:** Gəl, gəl görüşək.

Qazi **Qəhrəman HÜSEYNOV:** Şükür İlahi. Mehriban xanım, xoş gördük. Gecələr Allaha yalvarırdım, ay Allah, Prezidentimlə görüşüm.

*Ağır gündə zireh geyən,*
*Düşmənlərin qəddin əyən,*
*El yığılıb alqışlayan*
*Rəhbərimə salam olsun!*

*Zəfərlərə meydan quran,*
*Keşiyində məğrur duran,*
*Yağı başa yumruq vuran*
*Rəhbərimə salam olsun!*

*Heydər baba dərsin alan,*
*Yağıları lərzəyə salan,*
*Qalib yazıb, qalib olan*
*Rəhbərimə salam olsun!*

*Əməlləri işıq saçan,*
*Səmasında qartal uçan,*
*Turanlara yollar açan*
*Rəhbərimə salam olsun!*

*Qəhrəmanlar vüqarından,*
*Ağdamlılar baharından,*
*Şəhidlərin diyarından*
*Rəhbərimə salam olsun!*

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sevinc ALIZADƏ:** Cənab Prezident, Sizə təşəkkür etmək istəyirəm. Mən şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşıyam, həm də "Zəfər" təşkilatının sədriyəm.

**Prezident İlham ƏLİYEV:** Tanıyıram. Allah rəhmət eləsin.

**Sevinc ALIZADƏ:** Mehriban xanım həmişə bizə dəstək olub.
















# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini anıblar







**Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümüdür.**

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər. Ümummilli Liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

## Milli Məclisin kollektivi Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



Mayın 10-da Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, Sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, parlamentin komitə sədrləri, deputatlar, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Aparat rəhbərinin müavinləri, Parlamentin İşlər müdiri Firudin Hacıyev, Aparatın və İşlər idarəsinin əməkdaşları Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə Fəxri xiyabana gələrək onun məzarını ziyarət ediblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin kollektivi və deputatlar Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər güllər düzüblər, Ümummilli Liderə dərin ehtiramlarını ifadə ediblər.

*"Azərbaycan"*

## YAP-ın nümayəndələri Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri mayın 10-da Fəxri xiyabana gələrək Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.



## Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib



Mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Müdafiə Nazirliyinin rəhbərliyi Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyub, xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı ziyarət olunub, üzərinə gül dəstələri qoyulub, ehtiram nümayiş etdirilib.

## Prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət ediblər



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102 illiyi ilə əlaqədar baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət edərək dünyaşöhrətli siyasətçinin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Bu barədə Baş Prokurorluqdan məlumat verilib. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub, məzarları üzərinə gül dəstələri qoyulub.

## Azərbaycandakı dini konfessiyaların rəhbərləri Ulu Öndərin məzarını ziyarət ediblər



Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü qeyd olunur. Bu münasibətlə martın 10-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə və Azərbaycanda fəaliyyət göstərən Dini Konfessiyaların Məşvərət Şurasının üzvləri, din xadimləri Ulu Öndərin Fəxri xiyabandakı məzarını ziyarət ediblər.

QMİ-dən AZƏRTAC-a bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla anılıb, ruhuna dualar oxunub. Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı önünə gül dəstələri düzülüb.

## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib





Mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyası və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib. Aksiya çərçivəsində Qaradağ rayonu, Müşfiqabad qəsəbəsi ərazisində 2000 ədəd Eldar şamı və zeytun ağacı əkilib. Eyni zamanda ağacların əkildiyi ərazilərdə təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.

## ECOLEAD layihəsi uğurla icra olunur

**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102 illiyi ilə əlaqədar paytaxtın Suraxanı rayonunda ECOLEAD layihəsi çərçivəsində ağacəkmə aksiyası keçirilib.**



Aksiya zamanı Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları, habelə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidməti, Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyi, Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyəti və Bakı Dövlət Universitetinin rəhbər heyəti və əməkdaşlarının iştirakı ilə 2 hektar (ha) ərazidə 500 ədəd ağac əkilib.

Məlumat üçün qeyd edək ki, 2024-cü ildə Baş Prokurorluğun təşəbbüsü əsasında icrasına başlanılan ECOLEAD layihəsi çərçivəsində hazırkı vaxtadək Bakı şəhərinin Suraxanı, Nəsimi, Binəqədi, Yasamal və Xətai rayonları ərazisində ümumilikdə 10 ha ərazidə 2200-dən çox ağac əkilmişdir.

Hazırda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti və Qarabağ Universiteti tərəfindən birgə həyata keçirilən ECOLEAD layihəsindən irəli gələn məqsədlərin gələcəkdə də icrası nəzərdə tutulur.

# Xalqımızın Ümummilli Liderinə böyük sevgisi

**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın xilaskar oğlu Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü günüdür. Qədirbilən Azərbaycan xalqı sevilən bu dahi şəxsiyyətin doğum günündə Fəxri xiyabana gələrək böyük ehtiramla onun məzarını ziyarət edir, qəbrüstü abidəsi önünə əklillər, təzə-tər güllər qoyur, əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dualar oxuyurlar.**





Hər il olduğu kimi bu il də dövlət rəsmiləri, ictimaiyyətin nümayəndələri, əllərində gül dəstələri, ürəklərində Ulu Öndər Heydər Əliyevə böyük sevgi və məhəbbətlə Fəxri xiyabana üz tutmuşdular. Gün ərzində Ümummilli Liderin məzarını ziyarətə gələnlərin ardı-arası kəsilmirdi. Bu da Azərbaycan xalqının Ulu Öndər Heydər Əliyevə olan sonsuz məhəbbətinin və dərin ehtiramının nümunəsi idi.

Fəxri xiyabana gələnlərlə söhbət etdik, onların Ümummilli Lider Heydər Əliyev haqqında olan xoş sözlərini, fikirlərini dinlədik. İlk həmsöhbətimiz olan Azərbaycan İqtisadiyyat Universitetinin dosenti, Prezident təqaüdçüsü Nailə Yusifova dedi ki, bu gün hər birimiz üçün əlamətdar və tarixi bir gündür. Bu gün Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin yaradıcısı və qurucusu, zaman-zaman ölkəmizi dönməz yüksəliş yoluna çıxarmış Ulu Öndər Heydər Əliyevin anadan olduğu gündən 102 il keçir. Hər il xalqımızın xilaskar oğlunun həm doğum, həm də Anım günündə xalqımızın bir övladı kimi Fəxri xiyabana gələrək Ümummilli Liderin məzarını ziyarət etməyi özümə mənəvi borc bilirəm. Nadir şəxsiyyət olan Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman vətəni, xalqı üçün əziz və doğma olaraq qalacaq. Çünki bu böyük insan xalqımız və dövlətimiz üçün gördüyü cahanşümul işləri ilə hələ sağlığında tariximizin səhifəsində adını əbədiləşdirmişdi. Dahi şəxsiyyət Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə çevirdi, hər bir vətəndaşın ürəyində sevgi və məhəbbət oyatdı. "Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Ulu Öndər Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda mübarizə aparıb. Bu mabarizə isə həmişə uğurla, zəfərlə yekunlaşıb. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin böyük, əvəzsiz xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz tərkib hissəsinə çevrilib. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb. Məhz bütün bunlara görə də onun Azərbaycana rəhbərlik etdiyi illər tariximizin səhifələrində milli intibah dövrü kimi əbədiləşib. Mən bir vətəndaş, bir müəllim kimi qürur duyuram ki, xalqımızın sevimli oğlu Ulu Öndər Heydər Əliyevin zamanında müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnanıram ki, Ümummilli Liderin ölkəmizin inkişafı üçün müəyyənləşdirdiyi strategiya Azərbaycan xalqını bundan sonra da böyük uğurlara qovuşduracaq.

Ehtiyatda olan polkovnik Teymur Həşimov da dedi ki, dahi şəxsiyyət Heydər Əliyevin məzarını ziyarət etdiyinə görə özünü çox xoşbəxt hiss edir: "Mən özümü həm də ona görə xoşbəxt hiss edirəm ki, uzun illər Ulu Öndər Heydər Əliyevin qurub-yaratdığı Azərbaycan Ordusunun sıralarında xidmət etmişəm. Ümummilli Liderimiz 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra çox böyük zəhmətlər bahasına güclü, qüdrətli ordu yaratdı. Məhz Ulu Öndərin bünövrəsini qoyduğu Azərbaycan Ordusu 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsində Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 30 ilə yaxın erməni qəsbkarlarının tapdağı altında qalmış torpaqlarımızı işğaldan azad etdi. Ulu Öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi illər Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin inkişaf etdiyi qızıl dövrüdür. Türk dünyasının böyük oğlu Heydər Əliyev xalqımızın yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan böyük şəxsiyyət kimi qalıb. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət başçısı yoxdur. Ulu Öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə Azərbaycanın nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Buna görə də Azərbaycan xalqının Ümummilli Liderə sevgisi və ehtiramı sonsuz olaraq qalacaq".

44 günlük Vətən müharibəsinin iştirakçısı olmuş, keçmiş döyüşçü Murad Əfəndiyev isə dedi ki, mən xalqıma, dövlətimə sadiq bir insanam: "Hər il Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını böyük ehtiram və sevgi ilə ziyarət edirəm. Bilirsinizmi, Azərbaycanın 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının dirçəlişi Ümummilli Liderin adı ilə sıx bağlıdır. Bu nadir şəxsiyyət ölkəmizə rəhbərlik etdiyi dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın sərt sınaqlarından çıxarmış, tərəqiyyə və inkişafa qovuşdurmuşdur. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyətdir. Bu gün ölkəmiz Ümummilli Lider Heydər Əliyevin layiqli siyasi davamçısı Prezident İlham Əliyevin başçılığı altında dinamik inkişaf edir, daha da böyük uğurlar qazanır. Mənim üçün çox qürurvericidir ki, 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin çağırışına səs verərək könüllü olaraq döyüşlərə yollandım. Suqovuşan kəndi uğrunda gedən döyüşlərdə iştirak etdim. Göstərdiyim igidliyə görə dövlətimizin başçısının müvafiq sərəncamı ilə "Cəsur döyüşçü" medalına layiq görüldüm".

Hava qaralsa da, Fəxri xiyabana gələnlərin ardı-arası kəsilmir. Azərbaycan xalqı unudulmaz Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsini dərin sevgi və ehtiramla yad etmək üçün bu dahi şəxsiyyətin məzarını ziyarətə gəlir. Bu onu göstərir ki, xalqımızın Ulu Öndərə olan sevgisi heç vaxt bitib-tükənməyəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# MAMA "Ana təbiət" sərgisinin Romada təqdimatı olub



















**İtaliyanın paytaxtı Romadakı məşhur "MAXXI" XXI Əsrin Milli İncəsənət Muzeyində MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin təqdimatı olub.**







AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

MAMA "Ana təbiət" incəsənət layihəsi debütünü 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Mərkəzində edib. Sərgi iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə ilk olaraq Bəhreyndəki təqdimatla səyahətə başlayıb. Bəhreyndən sonra Romada təqdim edilən layihə müasir rəssamlar qrupunun heyrətamiz yaradıcılığının nümayişidir.

MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi Azərbaycan da daxil olmaqla, 28 ölkədən - ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Cənubi Koreya, Gürcüstan, Hindistan, İspaniya, İsrail, Latviya, Pakistan, Rusiya, Türkiyə, Ukrayna və digərlərindən 55 fərqli sənətkarı bir araya gətirərək incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır. Burada fərqli instalyasiya, rəsm və multimedia nümunələri vasitəsilə müasir dövrün ekoloji və sosial problemləri ilə səsləşən hekayələr təqdim edilir. Layihə bəşəriyyət və təbiət arasındakı zəngin və mürəkkəb münasibətləri ön plana çəkir. Ekspozisiyadakı hər bir incəsənət əsəri insanın təbiətlə dərin bağlılığına bir mesajdır. Həmin mesajın məqsədi Yer kürəsini təkcə ilham mənbəyi kimi deyil, həm də həyat üçün zəruri qidalandırıcı qüvvə kimi təqdim etməkdir.

Ekspozisiya dünya səyahəti zamanı insanla təbiət arasındakı ayrılmaz bağlılığı vurğulayır və ana fiqurunu həm mənəvi, həm də fiziki mənada həyatın əsas mənbəyi kimi ön plana çıxarır. Sərgi izləyiciləri təbiətə qarşı məsuliyyət, qayğı və ekoloji yenilənmənin zəruriliyi barədə düşünməyə dəvət edir.

MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi Romanın "MAXXI" XXI Əsrin Milli İncəsənət Muzeyində mayın 14-dək davam edəcək.

# Leyla Əliyeva və Arzu Əliyevanın iştirakı ilə Bakıda növbəti ağacəkmə aksiyası keçirilib

















**Mayın 10-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın iştirakı ilə Suraxanı rayonu, Zığ şosesindəki boş ərazidə ağacəkmə aksiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, aksiya Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilib.

IDEA könüllülərinin fəal iştirakı və Bakı Abadlıq Xidmətinin dəstəyi ilə keçirilən tədbir zamanı ərazidə 1000 ədəd zeytun ağacı əkilib və yaşıllaşdırma ilə yanaşı, abadlıq işləri də aparılıb. Ağacların effektiv şəkildə sulanması və su israfının qarşısının alınması üçün damcılı suvarma sisteminin tətbiqi nəzərdə tutulub.

Qeyd edək ki, tədbir Zığ-Aeroport yolu boyunca mütəmadi olaraq həyata keçirilmiş ağacəkmə kampaniyaları çərçivəsində həmin ərazidə aparılan yaşıllaşdırma işlərini yekunlaşdıran sonuncu aksiya kimi təşkil edilib.

Tədbirdə həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim Mətbəx" sosial layihəsinin veb-saytı və sosial şəbəkə hesabları haqqında məlumat təqdim edilib. Layihənin əsas məqsədi aztəminatlı ailələrə və ehtiyacı olan şəxslərə isti yeməklər təqdim edərək onlara sevgi və qayğı ilə dolu bir mühit bəxş etmək və cəmiyyətimizdə həmrəylik ruhunu daha da gücləndirməkdir. Fəaliyyətə başladığı gündən etibarən "Bizim Mətbəx" könüllüləri Bakı və ətraf bölgələrdə yaşayan yüz minlərlə insana isti yeməklər təqdim edərək onların gündəlik həyatına isti münasibət və ümid bəxş etməyə nail olublar.

**1923** *Azərbaycanın özü qədər əbədi* **2025**

# Ulu Öndər amallarından Böyük Qayıdışa

## Ağdamın Kəngərli kəndi qayıdışın növbəti ünvanı oldu

**"Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm".**

20 mart 1998-ci ildə Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz bayramı münasibətilə qaçqın və məcburi köçkünlər üçün təşkil olunmuş bayram şənliyində Ulu Öndər Heydər Əliyev böyük inam və əminliklə dilə gətirmişdi bu fikirləri.

Həmin tarixi gündən 22 il keçdikdən sonra Azərbaycan xalqı başlanğıcını Ulu Öndər amallarından götürən milli ideyaların Prezident İlham Əliyev tərəfindən qətiyyətlə gerçəkləşdirildiyinə xoşbəxtliklə şahidlik etdi.

8 noyabr 2020-ci ildə qazandığımız Şuşa Zəfəri sayəsində xalqımız tarixindəki ən əlamətdar, qürurlu anlarına qədəm qoydu, Qələbə sevincini daddı, həsrət qaldığı Vətənə qovuşdu. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin olundu, ayulduzlu, üçrəngli bayrağımız Qarabağın zirvələrində əbədi dalğalandırıldı.

Şanlı Zəfər sayəsində məcburi köçkünlük yükündən azad olan yüzminlərlə vətəndaşımız düz bir qərinəlik vətən sınağından sonra Böyük qayıdış adlandırdığımız möcüzəvi gerçəkliyi yaşamağa başladı.

### 13 min nəfər doğma yurduna dönüb

Vətən müharibəsindən ötən 5 ilə yaxın müddət ərzində Qarabağ və Şərqi Zəngəzurun 13 yaşayış məntəqəsinə - Zəngilanın Ağalı, Tərtərin Talış, Laçının Zabux, Sus, Xocalının Ballıca, Ağdərənin Həsənriz, Suqovuşan, Ağdamın Sarıcalı kəndlərinə, eləcə də Laçın, Füzuli, Şuşa, Xocalı, Cəbrayıl şəhərlərinə qayıdış karvanları yola salınıb. Qurucu lider İlham Əliyev tərəfindən yenidən təməlləri qoyulan və hərtərəfli işlər həyata keçirilən bu yaşayış məntəqələrinə artıq 13 mindən çox sakin qovuşdurulub.

Bu il mayın 10-da Ulu Öndər Heydər Əliyevin 102-ci doğum günündə isə 14-cü yaşayış məntəqəmizə növbəti köç oldu, Ağdam rayonunun Kəngərli kəndində qayıdış xoşbəxtliyi yaşandı. Həmin gün yolunu Ağdamdan - işğal dövründə düşmənin xarabalığa çevirdiyi, görənlərin dəhşətlə "Qafqazın Hirosiması" adlandırdığı və hazırda sürətlə dirçələn qədim yurdumuzdan salan Prezident İlham Əliyev rayonun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak etdi. Kəngərliyə köçən ilk sakinlərə yeni evlərinin açarlarını şəxsən təqdim edən, onların qayıdış sevincini bölüşən Qarabağın qurucusu İlham Əliyev bir daha Ağdama yenidən həyatın qayıtdığının müjdəsini çatdırdı.

Qürurla nümunə çəkdiyimiz bu statistikanın özü də təməlləri 1994-cü ildə Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən Horadiz əməliyyatı sayəsində Füzuli rayonunun Horadiz qəsəbəsinə doğma sakinlərinin qaytarılması ilə atılan uğurlu Böyük Qayıdışın Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzura doğma sakinlərinin dönməsi ilə öz məntiqi zirvəsinə yetdiyini göstərir.

Təbii ki, 2016-cı ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qələbə çalınmış şanlı Aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlərinin qovuşdurulması da Böyük Qayıdışın mühüm halqalarından olub.

Bütün bunlar həm də uzaqgörən və müdrik siyasəti, mükəmməl diplomatik gedişləri, təkrarsız hərbi taktikası sayəsində ərazilərimizi işğaldan azad edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük vətənpərvər, dahi şəxsiyyət Heydər Əliyevin siyasi irsini layiqincə yerinə yetirməsini, onun Azərbaycanın gələcəyi ilə bağlı amallarını, arzularını gerçəkləşdirməsini parlaq şəkildə təcəssüm etdirir.

### Müqəddəs qayə

Hələ birinci dəfə hakimiyyətdə olduğu illərdə ölkəmiz adına misilsiz işlər gerçəkləşdirərək inkişafına nail olan Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə respublikamıza yenidən rəhbərliyə gəlməsi Azərbaycanın qurtuluşu oldu. Bu, sözün əsl mənasında İlahi möcüzə idi ki, ölkəmizin işğalla üzləşdiyi, siyasi çəkişmələrin meydanına çevrildiyi, vətəndaş müharibəsinin astanasında olduğu və ən əsası 70 illik istibdaddan sonra yenicə qazandığı müstəqilliyini itirmək kimi təhlükəylə üzüzə qaldığı dəhşətli məqamda dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan siyasi səhnəsində Günəş kimi doğmuşdu.

Öncə ölkəmizdə siyasi sabitliyi təmin etmək və Ermənistanla atəşkəs razılaşmasına nail olmaq kimi həyati əhəmiyyətli məsələləri həll edən Heydər Əliyevin gündəliyində duran ən vacib prioritet işğal edilmiş ərazilərimizin düşmən tapdağından azad olunması və dədə-baba torpaqlarından zorla didərgin salınmış vətəndaşlarımızın yurd-yuvalarına qayıdışı idi.

Əlamətdar günlərdə, tədbirlərdə hər zaman qaçqın və məcburi köçkünlərin yanında olan, onlara böyük diqqət və həssaslıqla yanaşan, problemlərinin həlli üçün vacib addımlar atan Ümummilli Lider Heydər Əliyev bəyan etmişdi: "İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün birnömrəli problemdir".

Çıxışlarında hər zaman məcburi köçkünlərin əzab-əziyyətlərini, yaşadıqları ağrıları dərindən duyduğunu ifadə edən Ulu Öndər əlamətdar günlərdə, bayramlarda mütləq məcburi köçkünlərin yanında olur, onlara tək olmadıqlarını hiss etdirirdi. 1999-cu ildə Novruz bayramı ərəfəsində Biləsuvardakı çadır düşərgəsində cəbrayıllı məcburi köçkün gənclərin toyunda Ulu Öndərin iştirak etməsi, gənc ailə ilə birgə qol götürüb oynaması, yaxud çadır şəhərciyində sac asıb yuxa çörək bişirən yaşlı qadını gördükdə doğmalıqla anasının da vaxtilə bu cür çörək bişirdiyini dilə gətirməsi indi də baxanları riqqətə gətirən və o günləri yada salan unudulmaz xatirələrdir.

Məcburi köçkün vətəndaşlarımızın vəziyyətinin yaxşılaşdırılması üçün əlindən gələn hər şeyi edən Ulu Öndərin şəxsi əzmi və qətiyyəti sayəsində əsası qoyulan uğurlu neft strategiyasının, "Əsrin müqaviləsi"nin sayəsində ölkəmizin əldə etdiyi ilk vəsait də məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi.



İnsanlarımızın olduqca acınacaqlı halda yaşamağa məcbur olduqları çadır düşərgələri bir-bir ləğv edilməyə başlanıldı.

2001-ci il sentyabrın 7-də Ulu Öndərin "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" və 13 may 2002-ci il "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" fərmanlarına uyğun olaraq, Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salındı və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edildi.

### Bütün çadır şəhərcikləri ləğv edildi

31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimindəki çıxışında Heydər Əliyev siyasətini davam etdirəcəyini bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev söyləmişdi: "Bilirsiniz ki, neft fondundan ayrılan vəsait ilk növbədə Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab Prezident Heydər Əliyevin fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam etdiriləcəkdir. Biz gələcəkdə də bu məsələyə böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar".

Sözügedən tarixdəki andiçmə mərasimindəki nitqində Prezident İlham Əliyev həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmiz üçün ən ağır problem olduğunu bildirmiş və onun yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna biləcəyini bəyan etmişdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir…

…Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Qaçqınların və məcburi köçkünlərin problemlərinin həllini ən başlıca vəzifələrindən biri kimi müəyyənləşdirən dövlətimizin başçısı İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi idi ki, 2007-ci ildə ölkəmizdə bir dənə də olsun çadır şəhərciyi qalmadı. Eyni zamanda 2020-ci ilə - Vətən müharibəsinə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı. Ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin olundu, həmçinin onların problemləri ardıcıl şəkildə öz həllini tapdı.

Ancaq ölkəmizin lideri hər zaman vurğulayırdı ki, bu yaşayış yerləri müvəqqəti xarakter daşıyır. Torpaqlarımız işğaldan mütləq azad ediləcək və məcburi köçkün vətəndaşlarımız üçün öz dədə-baba torpaqlarında evlər tikiləcək.

### Zəfər müjdəsi, diriliş marşı

27 sentyabr 2020-ci ildə bütün məcburi köçkünlərin ümidləri də bir anda işarmağa başladı...

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qarabağdan qanadlanan qələbə müjdələri, "Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı, Şuşa, Laçın, Ağdam, Kəlbəcər… bizimdir, Qarabağ Azərbaycandır!" hayqırtıları bütün məcburi köçkünlərin diriliş marşına çevrildi…

Üzərindən üç il keçdikdən sonra, yenə də payız çağında - 19-20 sentyabr 2023-cü ildə keçirilən antiterror tədbirlərində suverenliyimiz tam təmin olundu. Bu parlaq qələbə bizə bütöv Azərbaycanı bəxş etdi…

Qalib lider İlham Əliyevin qazandığı Şuşa, Xankəndi zəfərləri Azərbaycan xalqına Qarabağ və Şərqi Zəngəzurun quruculuq təntənəsini, Böyük qayıdış xoşbəxtliyini yaşatdı.

Zəfərdən sonra bu xoşbəxtliyi ilk yaşayanlar, doğma Vətənə dönüşün ilk "qaranquşlar"ı isə Zəngilanın Ağalı kəndinin sakinləri oldular.

Ardınca yuxarıda sadaladığımız yaşayış məntəqələrinə də qayıdış köçləri həyata keçirildi və bu möhtəşəm proses hazırda da davam edir.

*Vətən müharibəsi bitdikdən cəmi bir gün sonra üzünü keçmiş məcburi köçkünlərə tutaraq "siz artıq köçkün deyilsiniz" müjdəsini çatdıran Qarabağın xilaskarı İlham Əliyev bu vətəndaşlarımızın ürəklərindəki birqərinəlik vətən nisgilini silib qayıdış xəbəri ilə şadlandırdı. Eyni zamanda "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik" deyən xalqımızın dahi oğlu Heydər Əliyevin bu sarsılmaz inamını, əminliyini Böyük Qayıdışla gerçəkləşdirərək, həm də Ulu Öndərin ruhunu şad etdi.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Güclü dövlətin qüdrətli ordusu

## Bu dövlətin və ordunun təməlini Heydər Əliyev qoymuşdur

**Ümummilli Lider Heydər Əliyevin xalqımızın təkidli tələbi və çağırışı ilə ölkə rəhbərliyinə qayıtması dövlətçiliyimizin tarixinə qızıl hərflərlə yazıldı. Ulu Öndərin hakimiyyətə dönüşü ilə ölkədə pozulmuş siyasi sabitliyin təmin olunması istiqamətində qətiyyətli və önəmli addımlar atıldı. Bunun da nəticəsində cəmiyyətdə sabitlik yarandı, dövlət quruculuğu prosesinin ən vacib və zəruri mərhələsi başlandı.**

Ümummilli Lider Heydər Əliyevin işıqlı dühası və rəhbərliyi altında qısa müddət ərzində milli dövlətçiliyimizin quruculuğu və möhkəmlənməsi istiqamətində misilsiz işlər görüldü. Aparılan möhtəşəm quruculuq işləri nəticəsində Azərbaycan bəşəri dəyərlərə hörmətlə yanaşan ölkə kimi dünya birliyinə qovuşdu, böyüklü, kiçikli bir çox dövlət tərəfindən tanındı, beynəlxalq aləmdə layiqli yerini tutdu.

Yaşadığı bütün mənalı ömrünü, siyasi fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına, tərəqqisinə həsr etmiş Ulu Öndərin rəhbərliyi altında ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı. Azərbaycan xalqı dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil ordunun yaradılması Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ölkəyə rəhbərlik etdiyi illər ərzində Ümummilli Lider Heydər Əliyev Azərbaycan Ordusunun yaranmasını və formalaşmasını daim diqqət mərkəzində saxladı. Onun güclənməsi, qüdrətlənməsi üçün tədbirlər gördü. Belə diqqət və qayğının nəticəsində Silahlı Qüvvələrimiz şərəf dolu inkişaf yolu keçdi.

Hələ Sovet hökumətinin sərt dövrlərində Heydər Əliyev Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratmışdı. Bu gün gənclərimizin böyük həvəslə üz tutduqları hərbi məktəbin bünövrəsi 1971-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində qoyulmuşdur. Hərbiyönümlü tədris ocağında yüzlərlə, minlərlə peşəkar hərbçi hazırlanmışdır.

Heç kimə sirr deyil ki, sovet rejiminin hökmran olduğu zamanlarda milli zabit kadrlarının hazırlanması üçün belə bir təhsil ocağının yaradılması respublika rəhbərliyindən həm böyük cəsarət, həm də qətiyyət tələb edirdi. Kommunist ideologiyasının beyinlərə, ürəklərə hakim olduğu bir dövrdə bu məsuliyyəti öhdəsinə götürməyə kimsə cəsarət etməzdi. Belə bir cəsarəti yalnız xalqının gələcəyini düşünən, millətinə ürəkdən bağlı olan, ömrünü ölkəsinin çiçəklənməsinə və tərəqqisinə həsr edən Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyət edə bilərdi.

Azərbaycanda hakimiyyətə gəldiyi ilk illərdən Ümummilli Lideri düşündürən müqəddəs amallardan biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi olmuşdur. Daim zamanın nəbzini tutan Ulu Öndər artıq hiss edirdi ki, azərbaycanlı gəncləri ali hərbi təhsil ocaqlarına hazırlamaq üçün respublikada hərbi təyinatlı orta internat məktəbini yaratmağın vaxtı yetişib. Məktəbin yaradılması Azərbaycanın gələcəyi üçün çox mühüm hadisə olacaqdı. Burada azərbaycanlı gənclər həm rus dilini mükəmməl öyrənəcək, həm də ibtidai hərbi biliklərə yiyələnəcək, keçmiş ittifaqın müxtəlif şəhərlərindəki ali hərbi məktəblərə daxil ola biləcəkdilər. Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi sayəsində Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması həm də gələcəkdə müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşması üçün kadr probleminin həlli yolunda mühüm addım olacaqdı.

Heydər Əliyev 1993-cü il noyabr ayının 2-də radio və televiziya ilə çıxış edərək, ölkədə yaranmış vəziyyətlə bağlı Azərbaycan xalqına tarixi müraciət etdi. Azərbaycanın qeyrətli, vətənsevər oğullarını ordu sıralarına, yurdumuzun müdafiəsinə səslədi. Qısa müddətdə yüzlərlə, minlərlə vətənpərvər gənc Ali Baş Komandanın çağırışına səs verərək ordu sıralarına axışdı. Bu cəsur oğullar silaha sarılaraq torpaqlarımızın müdafiəsinə qalxdılar. Onların sırasında bu hərbi məktəbin məzunları da vardı.

1994-cü il mayın 12-də cəbhədə atəşkəs elan olundu. Bundan sonra ölkəmizdə ordu quruculuğu istiqamətində olduqca mühüm işlər görüldü. Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə diqqət artırıldı. Heydər Əliyevin 22 may 1998-ci il tarixli sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Ordusunun qısa müddət ərzində inkişaf edərək təşkilatlanmasına, böyük gücə, qüvvəyə çevrilməsinə yüksək dəyər verərək demişdir: "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində Milli Ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycan Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli Ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

Ötən müddət ərzində müstəqilliyimizin ən etibarlı təminatçısına çevrilən güclü və qüdrətli ordu xalqda özünəgüvənlik yaratdı. Xalqımız əmin oldu ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yaradılan Azərbaycan Ordusu günlərin birində erməni işğalında qalmış torpaqları azad edəcək. Ümummilli Liderin sözləridir: "…İndi bizim hərtərəfli təlim görmüş, yüksək döyüş hazırlığına malik güclü ordumuz var". Bəli, bu gün hər birimiz fəxrlə deyə bilərik ki, sıralarında Azərbaycan oğullarının qürurla xidmət etdiyi qüdrətli ordumuz məhz Ümummilli Lider Heydər Əliyevin sərkərdəliyi altında yaranmış və formalaşmışdır.

Ulu Öndər hakimiyyətdə olduğu dövrlərdə ordumuzun hər bir zabitinin, əsgərinin döyüş vərdişlərinin artırılmasına xüsusi diqqət yetirirdi. Ali Baş Komandan ordunun üzərinə düşən vəzifələrdən bəhs edərək demişdir: "Bizim ordumuz, Silahlı Qüvvələrimiz torpaqlarımıza hücum edənlərin qarşısını almağa hər an, hər saat hazır və layiqli cavab verməyə qadir olmalıdır". Onun bu dəyərli və qiymətli sözlərindən ruhlanan komandirlər şəxsi heyətin döyüş ovqatını, qələbə əzmini daha da yüksəltmək üçün bütün imkan və vasitələrini səfərbər edirdilər. Təlim və məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə can atan zabitlər Vətənin keşiyində ayıq-sayıq dayanan, düşməni məğlub etməyə qadir və hazır olan əsgərlər hazırlayırdılar.

Ümummilli Lider Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında sərəncam imzaladı. 1997-2001-ci illərdə zabit heyətinin təkmilləşdirmə kursları, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı (27.02.2004-cü ildən Heydər Əliyev adına Hərbi Lisey), ehtiyat zabitlərin hazırlıq kursu və Azərbaycan Tibb Universitetində Hərbi tibb fakültəsi yaradıldı. Bütün bunlar isə Silahlı Qüvvələrin peşəkar, bilikli, bacarıqlı, Vətəninə, xalqına və dövlətinə sadiq hərbçilərlə təmin olunmasında əvəzsiz rol oynadı.

Heydər Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin imici beynəlxalq aləmdə yuksəldi, böyük nüfuz qazandı. Bundan sonra Silahlı Qüvvələrimizin dünya ölkələrinin ordularına inteqrasiyası üçün əlverişli şərait yarandı. Qısa müddət ərzində həyata keçirilən uğurlu islahatlar nəticəsində ordumuzun beynəlxalq əlaqələri getdikcə möhkəmləndi. Ümummilli Liderin təşəbbüsü ilə Silahlı Qüvvələrimizin tərkibində formalaşan sülhməramlı taborun şəxsi heyəti Kosovoda, Əfqanıstanda və İraqda sülhün qorunmasında fəal iştirak etdi. Zabit və əsgərlərimiz bu müddət ərzində üzərlərinə düşən tapşırıqları bacarıqla yerinə yetirdilər. Bütün bunlar həm ölkəmizin, həm də ordumuzun beynəlxalq aləmdə nüfuzunu daha da artırdı, etibarlı tərəfdaşa çevirdi.

Prezident İlham Əliyevin rəhbərliyi altında başqa sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Ordusunun gücü, qüdrəti daha da artdı. Silahlı Qüvvələrimiz ən müasir silah-sursatla, hərbi texnika və avadanlıqlarla təmin olundu.

Xalqımız Azərbaycan Ordusunun getdikcə artan gücünə, qüdrətinə 2016-cı ilin Aprel döyüşlərində şahidlik etdi. Ermənistan ordusunun təxribatlarına cavab verən ordumuz sürətli, qələbəyə hesablanmış əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı. Bu, Azərbaycan Ordusunun uzun illərdən bəri erməni işğalında qalmış torpaqlarımızı azad edəcəyinə inamımızı daha da artırdı.

Şanlı ordumuz xalqımızın illərdən bəri gözlədiyi sevinci ona 2020-ci ilin payızında yaşatdı. 27 sentyabr 2020-ci ildə erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda cəsarət və hünərlə vuruşdular, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğratdılar. 44 günlük Vətən müharibəsi və Qarabağda uğurla həyata keçirilən antiterror əməliyyatları Azərbaycanın tarixi Zəfəri ilə başa çatdı, ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildi. Bu tarixi qələbəni Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu Azərbaycan Ordusu qazandı.

*Şanlı Azərbaycan Ordusu bu gün dövlətimizin qüdrətinin göstəricisi, xalqımızın iftixar yeri, ölkəmizin ərazi bütövlüyünün təminatçısı və ən etibarlı müdafiəçisidir. Bir çox beynəlxalq hərbi tədqiqat mərkəzinin verdiyi qiymət və məlumata görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı, ən müasir ordusudur. Hər bir xalqın xilaskar ordusu ilə öyünməyə, qürur duymağa və fəxr etməyə haqqı var. Bu gün Azərbaycan xalqı da Müzəffər Ali Baş Komandanı və şanlı ordusu ilə qürur duyur, öyünür.*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

1923 Azərbaycanın özü qədər əbədi 2025

# "Heydər Əliyev - müstəqil və qüdrətli Azərbaycanın banisi"



**Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Gəncə şəhər Heydər Əliyev Mərkəzində "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş "Heydər Əliyev - müstəqil və qüdrətli Azərbaycanın banisi" mövzusunda "dəyirmi masa" keçirilib.**

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə Apellyasiya Məhkəməsinin sədri Toğrul Əli, Gəncə Şəhər Məhkəməsinin sədri Xaqani Tağıyev, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, AMEA Gəncə Bölməsinin sədri akademik Fuad Əliyev, Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov, Azərbaycan Texnologiya Universitetinin rektoru Yaşar Ömərov, Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru professor İbrahim Cəfərov, eləcə də hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri iştirak ediblər.

Əvvəlcə rəsmilər Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, onun xatirəsinə dərin ehtiramlarını ifadə ediblər. Daha sonra mərkəzdə yerləşən Ulu Öndər Heydər Əliyevin Xatirə Muzeyinə ekskursiya təşkil olunub, iştirakçılar rəsm sərgisinə baxış keçiriblər.

Tədbir zamanı müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Daha sonra Dövlət himni səsləndirilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin şərəfli həyat yolu, müdrik liderlik fəaliyyəti və xalqımıza göstərdiyi misilsiz xidmətlər barədə ətraflı məlumat təqdim olunub.

Niyazi Bayramov çıxışında vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin müdrik və qətiyyətli siyasi fəaliyyəti Azərbaycan xalqının taleyində dönüş nöqtəsi olmaqla, ölkəmizin müstəqillik tarixində yeni və şanlı mərhələnin əsasını qoyub. Onun rəhbərliyinin hər iki dövründə ölkəmiz sosial-iqtisadi inkişaf, elm, təhsil, mədəniyyət və digər sahələrdə mühüm nailiyyətlər əldə edib. RİH başçısı bildirib ki, məhz Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın sabitliyi təmin olunub, ölkəmiz bölgədə və beynəlxalq aləmdə söz sahibi olan bir dövlətə çevrilib. Onun ideyaları bu gün də yaşayır və inkişaf edir. Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu ideyalar uğurla davam etdirilir, Azərbaycan güclənir, qüdrətlənir və regionda lider mövqeyini möhkəmləndirir.

Daha sonra çıxış edən Bayram Aslanov, akademik Fuad Əliyev, professor İbrahim Cəfərov və Əməkdar həkim Mehman Rzayev Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən danışıblar. Qeyd edilib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu qərar çərçivəsində Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyi ölkə miqyasında geniş qeyd olunur. Keçirilən tədbirlər Heydər Əliyev siyasətinin davamı kimi böyük əhəmiyyət daşıyır. Bildirilib ki, Konstitusiyamız bu gün həm hüquqi sabitliyin təminatçısı, həm də insan hüquq və azadlıqlarının əsas qoruyucusudur. Onun hazırlanıb qəbul olunmasında Heydər Əliyevin rolu misilsizdir - o, Azərbaycanın dövlət quruluşunun hüquqi əsaslarını formalaşdıraraq müasir dövlətin hüquqi modelini yaradıb.

# Naxçıvanda tibbi müayinə aksiyası keçirilib

**"Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda silsilə tədbirlər çərçivəsində, həmçinin Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Sədərək Rayon Mərkəzi Xəstəxanasında "Ümummilli Lider Heydər Əliyevin yolu ilə sağlamlığa doğru" adlı tibbi müayinə aksiyası təşkil olunub.**





Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, aksiyanın əsas məqsədi əhalinin sağlamlığının qorunması, xəstəliklərin erkən diaqnostikası və profilaktik tədbirlərin gücləndirilməsidir. Müayinə zamanı sakinlər terapevtik, kardioloji, oftalmoloji və digər sahələr üzrə peşəkar həkimlər tərəfindən yoxlanılıb, ehtiyac olduqda əlavə müayinələrə yönləndirilib. Aksiya zamanı ümumilikdə 402 nəfər müayinədən keçib.

# "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda qadın siyasəti"

## Masallıda Ulu Öndərin doğum günü ilə bağlı tədbir keçirilib

**Masallı Tarix-Diyarşünaslıq Muzeyinin və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda qadın siyasəti" mövzusunda tədbir keçirilib.**

Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102 illiyi münasibəti ilə keçirilən tədbirdə şəhid anaları, veteran və gənc qadınlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan YAP rayon təşkilatının sədri Seyfəddin Əliyev qeyd edib ki, Azərbaycanın ictimai-siyasi həyatında qadınların rolunun artması və fəaliyyət dairəsinin genişləndirilməsi ölkəmizin uğurlarından biridir. Azərbaycan qadınları bu gün dünya qadınlarının qabaqcıl dəstəsi ilə bir sırada addımlayır. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövrlərində qadınlarımızın ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, xanımlarımızın bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilib. Artıq Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanda gender dövlət siyasəti formalaşmışdır".

Çıxış edənlər də bildiriblər ki, Ümummilli Liderin qadınlarla bağlı məsələlərin həlli üçün imzaladığı mühüm fərman və sərəncamlar qadınların hüquqlarının təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlardır. Heydər Əliyev hər zaman vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün var qüvvələrini sərf ediblər. Azərbaycanda lider qadınlar, sahibkar qadınlar yetişir. İqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə - bir sözlə, hər sahədə bunu görmək olar. Bu gün Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir.

# Astaralılar Ulu Öndəri dərin ehtiramla yad edirlər

**Astarada rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş konfrans keçirilmişdir.**





Konfransda çıxış edən RİH-in başçısı Q.Ağayev qeyd etmişdir ki, görkəmli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin mənalı ömür yolu o qədər zəngindir ki, onu illərlə öyrənməyə çalışsaq da, öyrənilməmiş səhifələri yenə də qalacaqdır: "Heydər Əliyev Azərbaycan tarixində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi əbədiləşmişdir. Ümummilli Liderimiz öz ali liderlik keyfiyyətləri ilə dünyanın siyasi elitasının ən uca zirvəsində qərarlaşan nəhəng şəxsiyyətdir".

Məruzəçi daha sonra bildirmişdir ki, xalqımızın taleyinə, Azərbaycan dövlətçiliyinin tarixinə təkrarolunmaz bir sima kimi daxil olan Heydər Əliyev Vətənin hər guşəsini əziz tutmuş və inkişafından ötrü var qüvvəsi ilə çalışmışdır: "Ulu Öndər Astara və astaralılarla daha çox bağlı olmuş, hər zaman görüşlərində onların əməyinə və dövlətçiliyə sədaqətinə yüksək qiymət vermişdir. Heydər Əliyevin 80 illik ömrünün müəyyən hissəsi Astara ilə bağlı olmuşdur. O, astaralılarla görüşündə qeyd etmişdir ki, "mənim gəncliyimin və həyatımın ən məsuliyyətli dövrü Astarada keçmişdir. Astaranın gözəl təbiəti, meşələri, dağ çayları, saf bulaqları və ən əsası sədaqətli insanları mənim üçün çox doğma, əzizdir". Dövlət təhlükəsizliyi orqanlarında çalışdığı ilk illərdən başlayaraq dəfələrlə Astarada olan Heydər Əliyev sərhədboyu ərazini qarış-qarış gəzmişdir".

Dahi şəxsiyyətin uzaqgörənliyini Azərbaycan Prezidenti İlham Əliyev əməli fəaliyyəti ilə təsdiqləyir. Müzəffər Ali Baş Komandan İlham Əliyev "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Ulu Öndərin vəsiyyətini həyata keçirməklə xalqımıza Qələbə sevincini yaşatdı. İkinci Qarabağ savaşında Azərbaycan xalqının sarsılmaz birliyi, Müzəffər Ali Baş Komandanın dəmir iradəsi və rəşadətli Azərbaycan Ordusunun fədakarlığı ilə uzun illər işğal altında olan müqəddəs torpaqlarımız azad edilməklə xalqımızın 30 illik həsrətinə son qoyuldu. 19-20 sentyabr 2023-cü ildə keçirilən antiterror əməliyyatında isə igid oğullarımız cəmi bir sutka ərzində erməni silahlı dəstələrinin tör-töküntülərini məhv edərək dövlətimizin suverenliyini tam bərpa etdilər. Qələbələrimizin memarı olan Prezidentin Xankəndidə bayrağımızı qaldırması isə xalqımızın 200 illik gözləntisinin genişlənməsi oldu".

Konfrans Heydər Əliyevin ömür yolu və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə sona catmışdır.

# Samuxlular Ulu Öndərə ehtiramlarını bildirmişlər



**Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibəti ilə Samux rayonunda tədbir keçirilmişdir.**

Tədbir iştirakçıları öncə Ümummilli Liderin abidəsinin önünə gül dəstələri düzmüş, xatirəsini ehtiramla yad etmişlər. Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən filmin nümayişindən sonra rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev çıxış etmişdir. Bildirmişdir ki, müstəqil, suveren, qüdrətli və güclü Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Xalqımızın nicatı, ölkəmizin sürətli inkişafı, bugünkü qələbələrimiz və nailiyyətlərimizin Ulu Öndərin adı ilə bağlı olduğunu deyən F.Əliyev qeyd etmişdir ki, Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanın gələcək inkişafını təmin etmişdir: "Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız hər il daha böyük uğurlar qazanır. Hər bir xalqın tarixi üçün ən önəmli məsələlərdən biri də onun ərazi bütövlüyüdür. Bu baxımdan İlham Əliyevin siyasi iradəsi, qətiyyəti ilə Vətən müharibəsində qazanılan şanlı qələbəmiz Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb".

Sonra söz iştirakçılara verilmişdir. Onlar müstəqil Azərbaycanın inkişafında qazanılan uğurları diqqətə çatdırmış və bu inkişafın banisinin Ümummilli Lider Heydər Əliyev olduğunu qeyd etmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Biləsuvarda "Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda konfrans keçirilib

**Biləsuvarda rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" adlı konfrans keçirilib.**



Heydər Əliyevin abidəsini ziyarətlə başlayan tədbirdə çıxış edənlər - Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov, YAP rayon təşkilatının sədri Kamil Qurbanlı, siyasi elmlər doktoru, professor, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı Murtəza Həsənov, tarix elmləri doktoru, adıçəkilən akademiyanın professoru Fuad Məmmədov bildirmişlər ki, 1993-cü ildə ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev öz müdrik siyasəti və tarixi uzaqgörənliyi ilə milli dövlətçilik ideyasının həyata keçirilməsinə, müasir və müstəqil Azərbaycan dövlətinin qurulmasına nail oldu. Qeyd edilmişdir ki, həmin illər cəmiyyətin gələcək inkişafı üçün tamamilə yeni və demokratik dəyərlərə əsaslanan milli qanunvericilik bazasının formalaşdırılması zərurətə çevrilmişdi. Məhz bu səbəbdən müstəqil dövlətin qarşısında duran ən vacib məsələlərdən biri yeni Konstitusiya layihəsinin hazırlanması oldu. Ümummilli Lider Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini verməklə yanaşı, Konstitusiyanın hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, Konstitusiya layihəsinin açıq müzakirələrini təşkil etməklə onun ən yetkin formada qəbulunu təmin etmək üçün gərgin əmək sərf etmişdir.

Ümummilli Liderin özünün də qeyd etdiyi kimi, müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması respublikamızın tarixində çox böyük bir hadisə oldu. Bu gün əminliklə demək olar ki, Azərbaycan dövlətinin hərtərəfli tərəqqisi, ölkə həyatının müxtəlif sahələrində həyata keçirilən islahatlar öz mənbəyini məhz Əsas Qanundan götürüb.

Konfransda çıxış edən rayon icra hakimiyyətinin başçısı Faiq Qürbətov Heydər Əliyevin Azərbaycan tarixindəki rolu barədə geniş məlumat verərək bildirmişdir ki, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, demokratik hüquqi dövlət quruculuğunun inkişafındakı müstəsna rolu və misilsiz xidmətləri xalqımız tərəfindən daim uca tutulur, əziz xatirəsi dərin ehtiramla anılır: "Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı".

Konfransda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə fəxri fərmanlar və Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.

*S.CAVADOV,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Vyetnam Azərbaycanla bütün sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir



**"Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfərini rəsmi Hanoyla Bakı arasında münasibətlərdə yeni mərhələ kimi dəyərləndirə bilərik. Son bir ayda Asiyanın əsas dövləti olan Çinlə Azəbaycan arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi, ardınca bu regionun ən sürətlə inkişaf edən ölkələrindən sayılan Vyetnamla münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması təsadüfi deyil. Bu, ilk növbədə Azərbaycanın xarici siyasətinin Asiya istiqamətində yeni istiqamətləri göstərir. Nəzərə alsaq ki, bu gün Cənub-Şərqi Asiya dünyanın yeni güc mərkəzidir və bu bölgənin də Azərbaycana marağı səbəbsiz deyil. Azərbaycan güclü, etibarlı tərəfdaş kimi diqqət mərkəzindədir".**

Bunu "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Nigar Məmmədova bildirib. Azərbaycanın hər zaman Vyetnama dəstək verdiyini deyən deputatın sözlərinə görə, hələ sovetlər dönəmində bu ölkənin ilk prezidenti Ho Şi Minin Azərbaycana səfəri, Ümummilli Lider Heydər Əliyevin Vyetnama səfəri o zaman SSRİ-nin tərkibində olmasına baxmayaraq, Vyetnam Azadlıq Müharibəsində və Vyetnamın birləşməsi prosesində Azərbaycanın göstərdiyi dəstək hər zaman yüksək qiymətləndirilib.

Nigar Məmmədova qeyd edib ki, Vyetnam xalqı da Azərbaycan xalqı kimi uzun illər təcavüzün, müharibə cinayətlərinin qurbanı olub, amma buna baxmayaraq, öz haqlarını tələb edərək bu mübarizədə qalib olmağı, ərazi bütövlüyü və suverenliyini təmin etməyi bacarıb.

Azərbaycanla Vyetnam beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığın perspektivlərini genişləndirməkdədir. "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" isə Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycan-Vyetnam əlaqələrini daha yüksək pilləyə qaldıran bir sənəddir. Rəsmi Bakı hesab edir ki, səfərin nəticələri uğurlu olacaq və əldə edilmiş razılaşmalar konkret layihələrə çevriləcək.

Vyetnam həm də "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərində çox maraqlıdır. Bu barədə danışan Nigar Məmmədova bildirib ki, coğrafi baxımdan iki ölkə arasında məsafənin uzun olmasına baxmayaraq, tərəflər nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarəti stimullaşdırmaq imkanlarını dəyərləndirməkdə qərarlıdırlar. İki ölkə həmçinin müdafiə və təhlükəsizlik sahələrində əlaqələri fəallaşdırmaq, informasiya təhlükəsizliyi, transmilli cinayətkarlıq və kibercinayətkarlıqla mübarizə sahələrində münasibətləri inkişaf etdirmək barədə razılığa gəlib.

To Lamın səfəri zamanı bir daha aydın oldu ki, Azərbaycanla Vyetnam arasında hər hansı fikir ayrılığı yoxdur. Əksinə, tərəflər bütün məsələlərlə bağlı vahid mövqedən çıxış edir. Bu da qarşılıqlı faydalı əməkdaşlıq üçün zəmin yaradır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycanla Vyetnam arasında münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub

**"Azərbaycanla Vyetnam arasında münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkələrimizin qarşılıqlı etimada və tərəfdaşlığa əsaslanan əlaqələri gələcək əməkdaşlığın perspektivlərindən xəbər verir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri iki ölkə arasında münasibətlərin inkişafına təkan verəcək. Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibəsində dediyi kimi, bu səfəri haqlı olaraq Azərbaycan-Vyetnam əməkdaşlığının inkişafında mühüm mərhələ kimi qiymətləndirmək olar. Ümumiyyətlə, Azərbaycanla Vyetnamın əlaqələrinin tarixi 1950-ci illərə gedib çıxır. Belə ki, 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycana səfər edib. Eləcə də Ulu Öndər Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışarkən 1983-cü ildə Vyetnamda səfərdə olub. Bütün bunlar ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib.



Deputatın sözlərinə görə, dövlətimizin başçısı müsahibədə əlaqələrimizin tarixi və perspektivləri haqqında fikirlərini ifadə edib. 2014-cü ilin mayında Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfəri ölkələr arasındakı münasibətlər tarixində yeni səhifə açıb, əlaqələrin bütün sahələr üzrə əməkdaşlığın inkişafına güclü təkan verib. 2015-ci ildə isə Vyetnamın Prezidenti Truong Tan Sangın Azərbaycana rəsmi səfəri reallaşıb. Bu səfər də Azərbaycan-Vyetnam münasibətlərinin tarixində vacib hadisə olub və iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi və dərinləşməsinə şərait yaradıb. Müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyətin yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. Komissiya mütəmadi dialoq və birgə təşəbbüslərin səmərəli reallaşdırılmasında mühüm platformadır.

Sevinc Fətəliyeva qeyd edib ki, hələ sovet dövründə Azərbaycanda minlərlə vyetnamlı gənc ali təhsil alıb. Onlar aldıqları təhsil ilə öz ölkələrinin inkişafına töhfə veriblər. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2014-cü ildə Hanoya səfəri zamanı Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları ilə görüşüb. 2015-ci ildə isə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis edilib.

"Digər bir vacib məqam isə Birinci vitse-prezidentimiz Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Vyetnamda həyata keçirdiyi humanitar layihələrdir. Fond 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir. Dövlətimizin başçısının müsahibədə dediyi kimi, cari ilin aprelində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində vitse-prezident Vo Ti An Suan, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Baş katibinin xanımı No Fon Li, yaradıcılıq sənayesinin nümayəndələri, Hanoy Ticarət və Turizm Kollecinin rəhbərləri, həmçinin Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşüb. Görüş çərçivəsində Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bağlı sertifikat təqdim edilib.

Bütün bunlar Azərbaycan-Vyetnam əlaqələrinin bundan sonra daha da inkişaf edəcəyini deməyə əsas verir", - deyə deputat vurğulayıb.

## Qlobal Cənub QHT Platforması: gələcəyi hədəfləyən yeni fikirlər və güclü addımlar

**Müasir dünyada sosial bərabərsizlik və iqlim dəyişmələri kimi qlobal problemlər hər bir ölkənin qarşısında duran vacib məsələlərdəndir. Qlobal Cənub ölkələrini birləşdirən Latın Amerikası, Afrika, Asiya, Okeaniya kimi regionlar həmin problemlərlə daha çox üzləşirlər. Halbuki sadalanan bu regionların zəngin təbii sərvətləri gələcəkdə dünya iqtisadiyyatında sanballı potensiala malikdir.**



Bu gün Qlobal Cənub dünyadakı iqlim dəyişmələrinin ən çox təsir etdiyi bölgələrdəndir. Burada quraqlıq, sel daşqınları və ekstremal hava şəraiti ilə bağlı problemlər daha sərt şəkildə hiss olunur. Xüsusən də Afrikanın səhraaltı regionları və Okeaniya bölgəsi iqlim dəyişikliyindən daha çox ziyan çəkir. Bu vəziyyət təkcə yerli əhali üçün deyil, qlobal iqtisadiyyat üçün də ciddi fəsadlar törədir.

Məlumdur ki, Qlobal Cənubun təbii sərvətləri və təchizat zənciri dünya iqtisadiyyatında vacib rol oynayır. Ona görə də həmin problemləri aradan qaldırmaq üçün hökumətlər sənayeləşmə, kənd təsərrüfatı və xidmət sektoru arasında şaxələnmiş iqtisadiyyat qurmağa çalışırlar. Artıq bu hesaba Çin, Hindistan, Braziliya və Cənubi Afrika kimi ölkələr inkişaf etmiş ölkələrin sırasına yaxınlaşmış və bir çox beynəlxalq müzakirədə əsas oyunçulara çevrilmişlər. Məsələn, Çin son 30 ildə iqtisadiyyatını sürətlə böyüdərək, qlobal ticarətdə və istehsalda əsas iştirakçıya çevrilmişdir.

Belə bir zamanda Qlobal Cənub QHT Platformasının (Global South NGO Platform) yaradılması yeni dünya nizamının formalaşmasında mühüm addım kimi diqqət çəkir. Hazırda Qlobal Cənub QHT Platformasına rəhbərliyin Azərbaycana həvalə edilməsi ölkəmizin beynəlxalq arenada moderator və lider kimi artan rolundan xəbər verir. Azərbaycandan sonra təsisatın hansı ölkə olmasından asılı olmayaraq, onun daimi mənzil-qərargahı Bakıda qalacaq. Platforma inkişaf etməkdə olan ölkələrdəki qeyri-hökumət təşkilatlarının gücləndirilməsi, əməkdaşlığın artırılması və bu ölkələrin beynəlxalq səviyyədə daha güclü səslərinin olmasına şərait yaratmaq üçün təsis edilmişdir. Üstəlik, Cənub bölgəsinin QHT-lərinin insan hüquqları, sosial ədalət, iqtisadi bərabərlik, təbii sərvətlərin qorunması və sülhün təşviqi sahələrində fəaliyyətlərini birləşdirərək daha səmərəli inkişaf yolu yaratmaq məqsədini daşıyır. Bunun üçün QHT-lər bir-birinin fəaliyyətlərindən öyrənir, uğurlu işlərini paylaşır və birgə layihələr həyata keçirir, beynəlxalq təşkilatlarla, xüsusən BMT, Dünya Bankı, Dünya Ticarət Təşkilatı kimi qurumlarla əlaqə quraraq Cənub ölkələrinin mövqelərini müdafiə edirlər.

28-29 aprel 2025-ci ildə Bakıda "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" mövzusunda geniş bir konfransın keçirilməsi bu təşkilatın nə qədər önəm daşıdığının göstəricisidir. Əslində, bu zamana kimi ölkəmizdə keçirilən böyük tədbirlər ya BMT və digər beynəlxalq təşkilatlar, ya da Azərbaycan dövlətinin xətti ilə həyata keçirilirdi. Bu tədbirin isə təşəbbüskarı və təşkilatçısı QHT-lər idi. Aprelin 29-da konfrans çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) daxil olan ölkələrin QHT-lərinin ilk görüşü baş tutdu. "Sərhədləri aşmaq: firavan gələcək naminə D-8 əməkdaşlığı" adlı yan tədbirdə məlum oldu ki, dünya müsəlmanlarının 60 faizinin yaşadığı və böyük iqtisadi potensiala malik D-8 ölkələrinin QHT-lərinin bu görüşə çox böyük ehtiyacı varmış.

Xatırladaq ki, D-8 1997-ci il iyunun 15-də İstanbulda rəsmən elan edilib. Təşkilat inkişaf etməkdə olan 8 müsəlman ölkəsinin birgə əməkdaşlıq və iqtisadi inkişafını təşviq etmək məqsədini güdür. D-8-ə üzv ölkələr Türkiyə, İran, İndoneziya, Pakistan, Misir, Nigeriya, Banqladeş və Malayziyadır. Təşkilatın əsas məqsədi üzv ölkələr arasında ticarət, iqtisadi əməkdaşlıq, texnoloji inkişaf və sosial rifahı artırmaqdır. 2017-ci ilin aprel ayından D-8-ə müşahidəçi ölkə statusunda qoşulan Azərbaycan 2024-cü ilin dekabrında Misirin paytaxtı Qahirədə keçirilən XI sammit zamanı yekdilliklə üzv seçilib. Bununla da təşkilatın sıraları ilk dəfə genişlənib. D-8 ölkələrinin böyük və tanınmış qeyri-hökumət təşkilatları adətən müxtəlif sahələrdə fəaliyyət göstərir. Bu təşkilatlar həm sosial, həm də iqtisadi sahələrdə əməkdaşlıq, inkişaf, hüquqların müdafiəsi, mühitin qorunması və digər önəmli məsələlərdə rol oynayırlar.

Banqladeşin sosial inkişaf və iqtisadi yardımlar sahəsində fəaliyyət göstərən "BRAC" və qadınların iqtisadi müstəqilliyini dəstəkləyən "Grameen Bank", Pakistanın humanitar yardımlar, təcili yardım və sosial xidmətlər sahəsində fəaliyyət göstərən "The Edhi Foundation", Türkiyənin fəlakət bölgələrində yardım fəaliyyətlərini həyata keçirən "Red Crescent", Pakistanın sosial və iqtisadi inkişaf layihələri ilə məşğul olan "Akhuwat Foundation", Misirin yoxsul ailələrə və ehtiyacı olan şəxslərə sosial yardım təqdim edən "Egyptian Society for Social Support", İndoneziyanın ekoloji məsələlər, təbii sərvətlərin qorunması və iqlim dəyişmələrii ilə mübarizə aparan "Indonesia's Green Peace Foundation" kimi QHT-ləri bu qəbildəndir. Bu təşkilatların hər biri D-8 ölkələrində ciddi sosial təsirə malikdir və təbii ki, yuxarıda qeyd etdiyimiz kimi, təkcə yerli səviyyədə deyil, regionlararası əməkdaşlıq və inkişaf sahələrində böyük rol oynayırlar. Eləcə də daxili və regional problemlərin həllində fəal iştirak edir, hər bir ölkənin özünəməxsus sosial və iqtisadi ehtiyaclarına uyğun olaraq, hökumət və beynəlxalq təşkilatlara təkliflər verir, müxtəlif layihələrə dəstək olurlar.

Qlobal Cənub QHT Platforması inkişaf etməkdə olan ölkələrin vətəndaş cəmiyyətlərinin dünya səhnəsindəki təsirini artırmaq yolunda addımlar atır. Lakin bu yolda qarşıya çıxan çətinliklər və resurs çatışmazlıqlarının mövcudluğu da sirr deyil. Gələcəkdə beynəlxalq əməkdaşlıq və tərəfdaşlıqların gücləndirilməsi Qlobal Cənub ölkələrinin daha da irəliləməsi və dünya səviyyəsində bərabər, ədalətli bir cəmiyyətin qurulması üçün mühüm rol oynayacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Cənubi Qafqazda yeni geosiyasi reallıq: Aİ Azərbaycan strategiyasını dəyişir

**Avropa İttifaqı qlobal geosiyasətdə müstəqil yer tutmaq uğrunda diplomatik fəallığını xeyli artırıb. Bu, Aİ rəsmilərinin dünyanın müxtəlif regionlarına səfərləri fonunda diqqət çəkir. Belə ki, birinci Mərkəzi Asiya-Avropa İttifaqı sammitinin keçirilməsindən az sonra təşkilatın xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın Bakıya səfər etməsi ortaya çoxlu sual çıxarıb. Ekspertlər bu suallara cavab axtarışlarını davam etdirirlər.**



### Kallas "oyun qaydaları"nı korrektə edir?

Kaya Kallasın Azərbaycana səfərinə ekspertlər ciddi maraq göstərirlər. Bunun başlıca səbəbi son zamanlar dünyanın böyük güclərinin Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətində nüfuz yarışını yeni səviyyəyə qaldırmaları ilə bağlıdır. Bu prosesdə güclü geosiyasi dairələr arasında rəqabətin daha kəskin xarakter aldığı aydın görünür.

Bundan başqa, K.Kallasın Aİ-nin Azərbaycana qərəzli münasibətləri fonunda nələri ifadə edə biləcəyi maraqla gözlənilirdi. Nəhayət, bu səfər Aİ-nin Mərkəzi Asiya dövlətləri ilə ilk ali səviyyəli sammiti fonunda olduqca düşündürücü idi. Bu baxımdan da ekspertlərdə K.Kallasın Bakıda hansı fikirləri ifadə edəcəyi maraq doğururdu.

Avropa mediasında Aİ-nin yüksək rəsmisinin Azərbaycana səfəri geniş təhlil edilməkdədir. Ekspertlərin diqqətini Almaniyanın "Tagesschau" xəbər saytında həmin səfərlə bağlı verilmiş geniş təhlil cəlb edib. Məqalədə vurğulanır ki, Azərbaycanla Çin arasında strateji tərəfdaşlıq "…çərçivəsində bərpaolunan enerji sahəsində və Çin ilə Avropa arasında nəqliyyat infrastrukturunun inkişafı istiqamətində birgə fəaliyyət" də nəzərdə tutulur.

Bu fikir diqqəti iki faktora yönəldir. Birincisi, Aİ bərpaolunan enerji məsələsini strateji əhəmiyyətli sayır. İkincisi, bərpaolunan enerji sferasında Aİ Azərbaycan-Çin əməkdaşlığından yararlanmaqda maraqlıdır. Bu zaman Aİ geosiyasi məsələlərə də ciddi önəm verir.

### Təhlükəsizlik faktoru

"Tagesschau"dakı məqalədə vurğulanır: "Hər iki sahə Avropa İttifaqı üçün böyük əhəmiyyət daşıyır. Dünyanın dəniz yolları boyunca təhlükəsizlik vəziyyətinin qeyri-müəyyənliyi Cənubi Qafqaz vasitəsilə quru nəqliyyat əlaqələrinin önəmini daha da artırır. Məhz bu səbəbdən Kallas Bakıda Aİ ilə region arasında əlaqələrin genişləndirilməsindən danışdı". Deməli, Brüssel sabit və dinamik marşrutla nəqliyyat infrastrukturu məsələsini və bərpaolunan enerji ilə kəsintisiz təminatı birləşdirməyə istiqamətlənib. Bununla Brüssel enerji ixracı ilə nəqliyyat-logistika faktorunu vahid əməkdaşlıq modeli çərçivəsində uyğunlaşdırmağa çalışır.

Azərbaycanın bu kontekstdə kifayət qədər zəngin təcrübəsi mövcuddur. O cümlədən Azərbaycan Mərkəzi Asiya və Çin istiqamətində xeyli işlər görüb. Azərbaycanın Trans-Xəzər nəqliyyat marşrutu və ya Orta dəhlizdə fəal iştirakı və rolu Bakıdakı müzakirələrdə xüsusi qeyd edilib. Məhz bu baza üzərində K.Kallas Bakıda Cənubi Qafqazla əməkdaşlığın genişləndirilməsi perspektivini də müzakirə edib. Həmin kontekstdə bir məqam ekspertlərin diqqətini daha çox çəkir. Belə ki, Aİ rəsmisi "…uzun müddətdir gündəmdə olmayan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üzrə danışıqların bərpasına da" toxunub.

### Brüssel: münasibətlərə yenidən baxış

K.Kallasın Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini xatırlaması təsadüfi sayıla bilməz. Çünki Bakıda o, bütövlükdə, Cənubi Qafqaz miqyasında əməkdaşlığın anatomiyasına toxunub. O, Cənubi Qafqaz ölkələrinin - Azərbaycan, Ermənistan və Gürcüstanın quru əlaqələrinə artan maraqdan yaranan imkanlardan faydalanmaq istədikləri və bu amilin regionda mövcud maneələrin aradan qaldırılmasını zəruri etdiyini ön sıraya çıxarıb. Bunun reallaşması isə birbaşa Azərbaycandan asılıdır. Məsələnin bu tərəfi geosiyasi baxımdan olduqca əhəmiyyətlidir. Çünki Aİ rəsmisi mövqeyini əsaslandıraraq, Azərbaycanın Cənubi Qafqazda aparıcı dövlət olduğunu açıq etiraf edib.

Bu, həqiqətən də, tarixi əhəmiyyətli bir dəyişiklikdir. Çünki uzun müddətdir ki, Aİ bu reallığı qəbul etmək istəmirdi. Brüssel əsassız olaraq Ermənistana dəstək verirdi. İndi də Avropa mediasının verdiyi informasiyalara görə, rəsmi İrəvan K.Kallasın Azərbaycandan sonra Ermənistana getməməsindən ciddi narahatlıq hissi keçirir. Çünki bu o deməkdir ki, Brüssel əsas olaraq Azərbaycana maraq göstərir və böyük layihələrdə onu Ermənistan elə də maraqlandırmır.

Əgər bu cür münasibət davam etsə, onda Brüsselin regiona baxışının yeniləşdiyini demək mümkün olacaq. Hələlik bu başlanğıcdır. Bu kontekstdə Bakıda Ermənistanla münasibətlərin normallaşması məsələsinin də müzakirə edilməsi maraq doğurur.

### Regionda dayanıqlı sülh uğrunda

K.Kallas Azərbaycan-Ermənistan münasibətlərinə məhz bu aspektdən yanaşır. O, Azərbaycan Prezidenti ilə görüşündə həmin fikri bir daha ifadə edib, daha sonra isə Azərbaycanın xarici işlər naziri ilə həmin məsələnin müzakirəsini aparıb. Aydın hiss olunurdu ki, Aİ Ermənistanı layihələrə daxil etməyə çalışır. Hətta avropalı rəsmi enerji marşrutlarından birinin Ermənistandan keçməsinin faydalı ola biləcəyinə işarə edib.

Bunu bir sıra ekspertlər "Aİ-nin İranı kənarda saxlamaq cəhdi" kimi qiymətləndirirlər. Digər ekspertlər isə dolayısı ilə Gürcüstanın cəzalandırılması əlaməti olaraq qiymətləndirirlər. Lakin bütün hallarda Ermənistanın Orta dəhliz layihəsinə qoşulmasına çalışıldığı duyulur. Bakının mövqeyi isə öncədən məlumdur. Ermənistan Konstitusiyasına dəyişiklik etməli və ATƏT-in Minsk qrupunun ləğv edilməsi ilə bağlı rəsmi bəyanat verməlidir. Yalnız bundan sonra sülh müqaviləsi imzalana və hər hansı əməkdaşlıq məsələsi müzakirə oluna bilər. Təbii ki, rəsmi Bakının mövqeyi əsaslıdır. Onu Prezident İlham Əliyev K.Kallasla danışıqlarda da ifadə edib.

### "Cənub qaz dəhlizi"

Azərbaycan Prezidenti İlham Əliyev K.Kallası qəbul edərkən "Cənub qaz dəhlizi"nin Aİ-Azərbaycan əlaqələrinin inkişafında xüsusi yer tutduğunu vurğulayıb. Bu layihə Avropanın enerji təhlükəsizliyində artıq dörd ildir ki, ciddi rol oynayır. Azərbaycan indi 8 Aİ üzvü olan ölkəyə qaz ixrac edir. Bütövlükdə isə Azərbaycan qazını 10 Avropa ölkəsi alır. Bunlardan başqa, Azərbaycan Gürcüstan, Rumıniya, Macarıstan və Bolqarıstanla birgə bərpaolunan enerji sferasında Qara dənizin dibindən keçməklə böyük layihəni reallaşdırır. Bu prosesin daha da inkişaf etdiriləcəyi və Aİ-Azərbaycan əlaqələrində "yaşıl enerji"nin xüsusi yer tutacağı gözlənilir.

### Perspektivlər

Qlobal miqyasda müşahidə edilən geosiyasi mübarizə fonunda K.Kallasın Azərbaycana səfəri Aİ-nin Cənubi Qafqazla bağlı siyasətinin yeni səviyyəyə yüksəldiyini göstərir. Azərbaycan Mərkəzi Asiya və Çin istiqamətlərində Aİ üçün birləşdirici rol oynaya bilər. Brüsseldə başa düşürlər ki, Azərbaycan olmasa, Mərkəzi Asiya ilə heç bir ciddi əməkdaşlıq qurmaq mümkün olmayacaqdır. Çünki Mərkəzi Asiyadan gələn etibarlı tranzit marşrutu məhz Azərbaycandan keçir.

İran Aİ üçün riskli ölkə hesab olunduğundan Tehranın iştirakı sual altındadır. Aİ ayrıca Rusiyadan keçən marşrutlarla maraqlanmır. Deməli, Azərbaycan yeganə etibarlı marşrut olaraq qəbul edilməlidir. Buna görə də K.Kallasın Azərbaycan səfəri tərəflər arasında münasibətləri perspektivli istiqamətdə inkişaf etdirə bilər.

Bundan bütövlükdə türk dünyasının da faydalana biləcəyi mümkündür. Deməli, Brüssel, faktiki olaraq, TDT ilə münasibətlərini Bakı üzərindən qurmaq yolunu seçib. Bu isə Azərbaycanın qlobal geosiyasətdə yeni mövqeyə yüksəldiyinin göstəricilərindən biridir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Dövlət şərait yaradır, investorlar yararlanır

## Sənaye zonalarındakı müəssisələrin yarıdan çoxu məhsullarını həm də ixrac edir



**Ölkədə iqtisadiyyatın xammal satışından asılılığını azaltmaq istiqamətində görülən işlər davam edir. Əvvəllər həm də bu məqsədi hədəfləyən sənaye parkları paytaxtda və Sumqayıtda yaradılırdısa, indi regionlarda da belə zonalar fəaliyyət göstərir. Bu isə eyni zamanda bölgələrin inkişafında və əhalinin məşğulluğunun təmin edilməsində önəmli rol oynayır.**

İndi isə işğaldan azad edilən ərazilərdə də iri sənaye zonaları salınır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının inkişafında önəmli rol oynayan həmin zonalara yerli və xarici investorları cəlb etmək üçün dövlət böyük güzəştlər tətbiq edir. Cari ilin 1 may tarixinə olan məlumata görə, işğaldan azad olunmuş ərazilərdəki sənaye parklarının rezidentlərinə idxal etdikləri texnika, texnoloji avadanlıqlar, eləcə də xammala görə 142 təsdiqedici sənəd verilib ki, bunun əsasında onlar təqribən 8 milyon manata yaxın vergi və rüsumlardan azad ediliblər.

İşğaldan azad edilmiş ərazilərdəki Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında investisiya kapitalı 400 milyon manat olmaqla 45 sahibkarlıq subyektinə rezidentlik, 8 sahibkara qeyri-rezidentlik statusu verilib. Burada 53 sahibkarlıq subyekti tərəfindən 4000-dən artıq daimi iş yerinin yaradılması planlaşdırılır. Artıq həmin sənaye parklarında görülən işlərə 136 milyon manatdan çox investisiya yatırılıb, 700-dən çox daimi iş yeri yaradılıb. Qeyd edək ki, bu sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azaddırlar. Ümumilikdə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər bu günə qədər 511 milyon manatlıqdan çox, cari ilin I rübü ərzində isə 7,3 milyon manatlıq güzəşt əldə ediblər.

Qayıdaq İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkına. Bu sənaye zonasında 2024-cü ilin sentyabrından 2025-ci ilin I rübü daxil olmaqla 85 milyon, o cümlədən cari ilin ilk rübündə 63 milyon manatlıq məhsul istehsal olunub. Xatırladaq ki, hazırda sənaye parkında 27 sahibkarlıq subyekti rezident, 5 sahibkar qeyri-rezident kimi qeydiyyatdan keçib. Qeydiyyata alınan 32 sahibkarlıq subyekti tərəfindən sənaye parkına 250 milyon manatdan çox investisiyanın yatırılması və 2100-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Artıq sahibkarlar tərəfindən sənaye parkında görülmüş işlərə 111,7 milyon manat investisiya yatırılıb, 649 iş yeri yaradılıb. 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkının 70 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Onu da bildirək ki, parkda hazırda 9 müəssisə fəaliyyət göstərir, 10-dan çox müəssisənin də tikinti işləri davam edir. Bu il parkda tütün məmulatlarının istehsalı müəssisəsinin fəaliyyətə başlaması planlaşdırılır.

Ölkədə mövcud sənaye zonaları iş adamlarının investisiya yatırmaları baxımından ən əlverişli biznes məkanıdır. Bu zonalarda sahibkarlıq fəaliyyətinin inkişafı üçün hər cür investisiya imkanları formalaşdırılır. Başqa sözlə, sahibkarlar əlavə texniki şərtlərin alınması tələbi olmadan dövlət vəsaiti hesabına hazır infrastruktur imkanlarından istifadə etməklə öz layihələrini icra edə bilirlər.

İqtisadi Zonaların İnkişafı Agentliyindən verilən məlumata görə, sənaye zonalarında inşa edilən müəssisələr ilk növbədə daxili bazarın tələbatını ödəmək üçün məhsul istehsal edir. Çünki əsas məqsəd yerli bazarın ehtiyaclarını təmin etməkdir. Bundan sonra isə hədəf yeni ixrac imkanları yaratmaq və yerli sənaye məhsullarını "Made in Azerbaijan" brendi altında xarici bazarlara çıxarmaqdır. Hazırda bu brend adı altında istehsal olunan məhsullar dünyanın 70-dən artıq ölkəsinə ixrac edilir. Yeri gəlmişkən qeyd edək ki, bu gün sənaye zonalarında fəaliyyət göstərən müəssisələrin 50 faizdən çoxu məhsullarını xarici bazarlara çıxarır. Belə məhsulların çeşidi 50-dən çoxdur. Təbii ki, bu, son rəqəm olmayacaq. Sənaye zonalarında yeni müəssisələrin sayı artdıqca ixrac edilən məhsulların çeşidi, həcmi və coğrafiyası da genişlənəcək.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Ermənistanda faşizm dövlət səviyyəsində təbliğ olunur

## Bu ölkədə nasistlər qəhrəman kimi qələmə verilir

**İkinci Dünya müharibəsində alman faşizmi üzərində qazanılan parlaq qələbədən 80 il keçir.**

İnsanlara ölüm və fəlakət gətirən bu dəhşətli müharibənin qanlı izləri, göstərilən amansızlıqlar, dağıntılar bu gün də yaddaşlarda və tarixin səhifələrində yaşamaqdadır. Nəhayət, gərgin mübarizədən sonra dünyaya hökmranlıq etmək istəyən alman faşizminin sonu gəlib çatdı. 1945-ci il mayın 9-da alman faşizmi məğlubiyyətə uğradıldı. 80 ildir ki, həmin gün Qələbə bayramı kimi qeyd olunur.

Alman faşizmi üzərində qazanılan bu tarixi Qələbədə azərbaycanlılar da misilsiz qəhrəmanlıqlar göstəriblər. 1941-ci ildə - İkinci Dünya müharibəsi başlayanda Azərbaycanda hərbi səfərbərlik ümumxalq hərəkatına çevrildi. Minlərlə oğlan və qız könüllü olaraq hərbi komissarlıqlara ərizə ilə müraciət edərək qələbə qazanmaq əzmi ilə cəbhəyə yollandı. Azərbaycan xalqının ümumilikdə 600 mindən çox övladı 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etdi. Müharibə illərində göstərdikləri igidliyə görə onlardan 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edildi. Faşizmə qarşı mübarizədə 130 nəfər Azərbaycan vətəndaşı (onlardan 43 nəfəri azərbaycanlıdır) Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Xalqımızın qəhrəman oğulları, qızları keçmiş ittifaqın Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və başqa əraziləri uğrunda cəsarətlə döyüşdülər. Aparılan uğurlu əməliyyatlar nəticəsində alman faşizmi məhv edildi. Bəşəriyyət rahat nəfəs almağa başladı.

Amma təəssüflər olsun ki, bu gün erməni işğalçıları, erməni separatçıları alman faşizmini dirçəltməyə, ona yeni həyat verməyə çalışırlar. Ermənistanda 80 il əvvəl bəşəriyyəti məhvə sürükləyən faşizm təbliğ olunur. Ölkənin paytaxtı İrəvanda faşist generalı Njde kimi tanınan, Hitlerin əlaltılarından biri sayılan, vaxtilə Vermaxtın erməni cəza legionunun əsasını qoymuş Qaregin Ter-Arutunyana heykəl qoyulub. Ən pisi də odur ki, Ermənistanda faşizm təbliğatı dövlət səviyyəsində aparılır. Njdenin heykəlinin açılışında o zamanlar Ermənistan prezidenti olmuş Serj Sarkisyan da iştirak edib. Bütün bunlar bir daha sübut edir ki, bu ölkədə faşizm, nasizm çiçəkləməkdə davam edir. Ermənistan Hitler nasizminin əlaltılarını qəhrəmanlaşdırmaq cəhdlərindən geri çəkilmir. Həm rəsmi İrəvan, həm də ona canla-başla züy tutan dünya erməniləri, bir zamanlar Hitlerin yaxın adamları olan erməni generalları Njde və Dronun (Drastamat Kananyan) adlarını təmizə çıxarmaq üçün bütün imkanlardan istifadə edirlər. Çirkin məqsəd və amallarına çatmaq üçün dəridən-qabıqdan çıxırlar.

Tarix isə heç nəyi unutmur. Bu gün Ermənistanın adlarını təmizə çıxarmaq istədiyi bu "milli qəhrəman"lar İkinci Dünya müharibəsində Ukrayna və Polşada on minlərlə dinc insanın qırğınına, yəhudilərə və nasist ideologiyasına "uyğun gəlməyən" digər xalqlara qarşı qanlı cinayətlər törədiblər. Buna görə də həmin qaniçən canilər tarix qarşısında məsuliyyət daşıyırlar. Erməni legionunun hesabatlarından da qan püskürür. Hesabatla tanış olanda öyrənirik ki, alman faşizminə xidmət edən bu erməni canilər təkcə Qərbi Krımda 20 mindən çox dinc sakini qətlə yetiriblər.

Erməni cəlladı Njde 1948-ci ildə hərbi cinayətkar kimi həbs edilib. Məhkəmə törətdiyi cinayətlərə görə ona 25 illik həbs cəzası verib. Alman faşizminə xidmət etmiş Njde 1957-ci ildə Vladimir şəhərindəki həbsxanada ölüb. Törətdiyi cinayətlərin ağırlığına görə hətta ölümündən sonra belə ona bəraət verilməyib. Məhkəmə əvvəlki hökmünü qüvvədə saxlayıb. Çünki bəşəriyyətin düşməni olanların cinayəti heç vaxt bağışlanmır. Bu gün dünya birliyi insanlıq əleyhinə olan faşizmin bütün təzahürlərini pisləyir. Belə bir vaxtda Ermənistanın siyasi rəhbərliyi Hitler Almaniyası dövründə çoxlu insanları, o cümlədən elə erməni xalqının nümayəndələrini amansızcasına qətlə yetirmiş, faşist rejiminə sədaqət andı içmiş caniləri bütləşdirmək siyasətindən əl çəkmir.

Alman faşizminə xidmət edən canilərin qəhrəmanlaşdırılmasına, idellaşdırılmasına və təbliğ olunmasına qarşı çıxan, beynəlxalq təşkilatlar, ölkələr qarşısında bu məsələni qaldıran Prezident İlham Əliyev 11 oktyabr 2019-cu ildə MDB Dövlət Başçıları Şurasının iclası zamanı demişdir: "Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Həmin məruzədə deyilir: "Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir".

Dövlətimizin başçısı çıxışına davam edərək onu da xüsusi olaraq qeyd etmişdir ki, Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı VI cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə deyilir: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur".

Dövlətimizin başçısı çıxışında bildirdi ki, burada şərhə ehtiyac yoxdur. Njde həbs olundu və Vladimir həbsxanasında ömrünü başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur.

Ermənistan nə qədər ki faşizmi təbliğ edir, hər yerdə və həmişə məğlubiyyətlə üzləşəcək. Çünki dünyanın heç bir yerində insanlıq əleyhinə olan faşizmə yer yoxdur. İkinci Dünya Müharibəsində Hitler faşizmini məğlub edən ataların, babaların nəvə və nəticələri, 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrini diz çökdürərək 30 ilə yaxın işğalda qalmış torpaqlarımızı azad etdi. Azərbaycan xalqına qələbə sevinci yaşatdı. Qarabağda erməni separatizminə, erməni vandalizminə, erməni işğalına son qoydu.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

◆ Reportaj

# Əlil şəxslər üçün yeni həyat

## Bunu onlara Peşə-Əmək Reabilitasiya Mərkəzi verir

**Hər bir gənc fərqli imkanlara və ehtiyaclara sahib olsa da, cəmiyyətin inkişafında və sosial həyatda öz yerini tapmalıdır. Gənclər bəzən fiziki və ya zehni məhdudiyyətlərə malik olurlar, lakin bu, onların həyatda uğurlu mövqe tutmalarına və cəmiyyətə qatılmalarına əngəl deyil. Əksinə, onların da cəmiyyətin digər üzvləri kimi öz potensiallarını reallaşdırmaq, təhsil almaq, işləmək və sosial həyatda fəal iştirak etmək hüquqları var.**









Bu baxımdan Azərbaycanda əlilliyi olan şəxslərə dövlət səviyyəsində xüsusi qayğı göstərilir. Onların hüquqları qorunur, bərabər imkanlar əldə etmələri üçün müxtəlif dövlət proqramları və qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Ölkəmizdə bu gənclərin cəmiyyətə inteqrasiyası üçün peşə reabilitasiya mərkəzlərinin rolu xüsusilə önəmlidir. Çünki həmin mərkəzlər yalnız fiziki və psixoloji bərpa deyil, həm də sosial və peşə inkişafı sahəsində dəstək təklif edirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiya Mərkəzi bu cür gənclərin peşə hazırlığı və məşğulluğunun artırılması yönümündə böyük işlər görən müəssisələrdəndir. Bakının Ramana qəsəbəsində yerləşən mərkəz fiziki, yüngül formalı əqli və psixi pozuntuları olan 15-29 yaşlı əlilliyi olan şəxslərin peşə hazırlığı və peşə reabilitasiyasını həyata keçirir. Qeyd edək ki, mərkəz sovetlər dönəmində ruhi-əsəbi əlillər üçün 2 saylı internat evi kimi fəaliyyət göstərib. 1990-cı ildən sonra 25 il Gənc Əlillərin Əmək və İstirahət evi, 2015-2020-ci illərdə isə 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya mərkəzi olaraq əlilliyi olan gənclərin ixtiyarına verilib. 2020-ci ilin avqustundan müəssisə Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzi statusunda fəaliyyətə başlayıb.

Mərkəzin direktoru Rəhilə Həsrətova ilə söhbətimiz də məhz əlil gənclərin fiziki, zehni və hissi qabiliyyətlərinin inkişafı yönümündə görülən işlərin ətrafında oldu. Direktor dedi ki, mərkəzdə əlilliyi olan 120 şəxsə xidmət göstərilir. Bura qəbul edilənlər dövlət hesabına yataqxana, yemək və reabilitasiya xidmətləri ilə təmin olunurlar: "Sosial Xidmətlər Agentliyinin şüarı belədir ki, əlillik qüsur deyil. Biz də bu fikri dəstəkləyərək yeniyetmə və gənclərin hər birinə fərdi yanaşırıq. Fərdi yanaşma onların şəxsi ehtiyaclarını və istəklərini nəzərə almaq deməkdir. Bu, onları daha dəqiq və effektiv dəstəklə təmin etmək üçün çox vacibdir. Hər bir insanın əlilliyi fərqlidir və bu, həmin şəxslərin həyat tərzi, sosial əlaqələri, təhsil və işinə təsir edir. Mərkəzdəki əlillər təkcə fiziki qüsurlu deyil, aralarında zehni və əqli çatışmazlığı olanlar, eləcə də danışa bilməyən, eşitmə və görmə qabiliyyətindən məhrumlar da var. Bu səbəbdən biz yeniyetmə və gənclərin hər birinin fərdi ehtiyaclarına uyğun dəstək modeli müəyyənləşdiririk. Mentorlarımız onların hər hansı bir peşəyə yiyələnmələri üçün istiqamət verirlər".

Direktor bizi mərkəzdə yaradılan şəraitlə, peşə reabilitasiya xidmətləri ilə tanış edərkən hiss etdik ki, Azərbaycanın müxtəlif yerlərindən gələn əlillər gələcəkdə məşğul olmaq istədikləri peşəni öyrənməyə həvəs göstərirlər. Fiziki və əqli çətinliklərinə baxmayaraq, başladıqları işi yarımçıq qoymaq istəmirlər. Onlar müxtəlif peşələr üzrə 3-6 aylıq kurslarda 12 istiqamət üzrə peşə bacarıqlarına yiyələnirlər. Kursları uğurla bitirənlərə peşə şəhadətnamələri verilir və əmək bazarına çıxışları üçün dəstək göstərilir. Gənclər kompüter istifadəçisi, montajçı-operator, rəssam, xalçaçı, toxucu, tikişçi, kişi və qadın bərbəri, dulusçu, aşpaz köməkçisi, manikür və ağac üzərində oyma işini mükəmməl öyrənməyə can atırlar.

Sadalanan bu peşələrin hər biri üçün ayrılmış otaq, dərnək və emalatxanalardakı iş tempini görərkən heyranlığımızı gizlədə bilmədik. Divarlarda, stolların üstündə sərgilənən əl işləri demək olar ki, gözəllikləri ilə göz oxşayır. Nümayiş olunan nümunələr - Azərbaycan xalqının bədii-estetik və mənəvi dəyərlərini özünə hopduran mini xalçalar, ağac üzərində oyma işləri, dulusçuluq nümunələri, kətan üzərində yağlı boya ilə çəkilmiş rəsm əsərləri, milli paltarlar əlillərin yaradıcılıq gücünü, daxili dünyasını əks etdirir. Əlilliyi olan şəxslər fiziki məhdudiyyətlərinə görə normal alət və texnikalardan istifadə edə bilmirlər. Bu da onları qeyri-adi və yaradıcı yanaşmalar axtarmağa sövq edir. Məhz bu səbəbdən mərkəzdə peşə öyrənənlərin əl işləri maraqlı və qeyri-adidir.

Mentor Nuranə Əhmədova xalça toxumağın sirlərini onlara sevə-sevə öyrədir. Bu peşənin əsrlər boyu Azərbaycan mədəniyyətinin ən vacib və qiymətli sənət sahələrindən biri olduğunu qızlara və oğlanlara izah edir. Xalça toxumağın sadəcə bir sənət forması deyil, həm də xalqın həyat tərzini, adət-ənənələrini və estetik baxışlarını əks etdirən dərin bir təcrübə olduğunu diqqətlərinə çatdırır.

Bədii oyma üzrə mentor Azər Əsədov reabilitasiya keçən gənclərə ağac üzərində bədii oyma işinin incəliklərini başa salır. Oymaçı gənclər bu işin çox qədim bir sənət növü kimi Azərbaycanın mədəniyytində xüsusi yer tutduğunu yaxşı bilirlər. Azər müəllim deyir ki, ağac üzərində oyma sənəti xalqımızın estetik zövqünü, dünyagörüşünü və ətraf mühitə münasibətini əks etdirir.

Digər mentorlar - Namiq Əsədov, Əfsanə Ələkbərova, Risalə Əliyeva, Rəşad Nemətullayev, Kifayət Məmmədova, Faiq Məmmədov, Həlimə Abbasova, Kəmalə Əsgərova, Davud Kəngərli, Ulduz Abbasova, Nailə Məmmədov və Pərvanə Əhmədova müəssisənin gənc sakinlərinə müxtlif peşələrin incəliyini öyrədərək bu insanların cəmiyyətə inteqrasiyasının və özgüvən hissinin artırılması üçün əllərindən gələni əsirgəmirlər. Peşə öyrənmək bu gənclərin reabilitasiyasına çox kömək edir və onların həm fiziki, həm də psixoloji sağlamlıq baxımından mühüm faydalar əldə etmələrini təmin edir.

Söhbət zamanı Rəhilə xanım dedi ki, burda peşə öyrənənlər bir çox halda əldə etdikləri bacarıqları sayəsində yalnız həyat keyfiyyətlərini yaxşılaşdırmır, həm də öz sahələrində mükəmməl və peşəkar usta kimi məşhurlaşaraq cəmiyyətdə tanınırlar ki, bu da onların dəyərli şəxsiyyət olmalarına stimul verir: "Onlar iş dünyasında, sosial fəaliyyətlərdə və incəsənətdə uğur qazanırlar. Bu şəxslərin bacarıqları, təcrübələri və yaradıcılıqları yalnız öz həyatlarına deyil, həm də cəmiyyətin inkişafına müsbət şəkildə təsir edir. Bu, onların peşə təhsilini necə effektiv şəkildə tətbiq etdiklərinin və cəmiyyətə hansı dəyəri verdiklərinin göstəricisidir", - deyə direktor fikirlərini bizimlə bölüşür. Həmsöhbətim mərkəzdə peşə öyrənən xeyli gəncin indi televiziyada, DOST xidmətində, xalça evində, rəssamlıq emalatxanalarında və digər yerlərdə işlədiklərini söylədi.

Reabilitasiya mərkəzində gördüklərimizdən, eşitdiklərimizdən doğan təəssüratımızı belə ifadə edə bilərik ki, müəssisə yalnız əlilləri və ya sağlamlıq problemləri olanları dəstəkləməkdən ibarət deyil, həm də cəmiyyətin ümumi rifahına töhfə verən, insanları ruhlandıran və onlara həyatın daha mənalı olduğuna qapı açan yerdir. Direktor başda olmaqla mərkəzin kollektivi əlil gənclərə yalnız peşə bacarıqları öyrətmək və təhsil verməklə kifayətlənmir, həm də onların şəxsi inkişafına dəstək olmaq, həyatlarını dəyişdirmək, yeni imkanlar təqdim etmək üçün təcrübə, enerji və biliklərini bu işə sərf edərək, məsuliyyət və vicdan sərgiləyirlər. Mərkəz hər bir gəncin şəxsi inkişafına və cəmiyyətə inteqrasiyasına kömək edərək, onları güclü bir gələcək üçün lazım olan resurslarla təmin edir.

*Züleyxa ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*













# Mədəniyyət





İncəsənət xadimlərimiz

## Rəssamlıq təhsili almasa da, məktəbini yaratdı

**Şəkil çəkməyə başlayanda rəssamlıq sənətinin nə olduğunu bilmirdi. O vaxtlar hələ çox uşaq idi. Əlinə keçən kağız parçalarında qələmlə müxtəlif şəkillər cızırdı. Kiçik Əzimin bu marağından təkcə ailə üzvləri deyil, qohum-qonşu, tanış-biliş də xəbərdar idi. Çünki nə özlərinin, nə də qonşularının divarlarında, küçədə boş yer qalırdı, hara gəldi şəkillər çəkirdi.**

Yeddi yaşı olanda atası Aslan onu doğma Novxanıdakı mollaxanaya apardı. Mollaxanaya uşaqların bəziləri candərdi gəlirdilər. Çünki gözünün yaşını tökə-tökə ərəbcə höccələdiklərini yadlarında saxlaya bilmirdilər. Əzimi öyrətmək isə çətin deyildi. Hafizəli uşaq idi. Molladan eşitdiklərini, onun öyrətdiklərini o dəqiqə yaddaşına həkk edərdi. Ancaq Əzim dərslərdə şəkil çəkir, yoldaşlarının fikrini yayındırırdı. Molla şəkil çəkməyin günah olduğunu deyir, misallar gətirirdi. Tənbeh edir, haray-qışqırıq salırdı. Faydası yox idi. Əzim öz işindəydi. Axırıncı "Səni bir də şəkil çəkən görməyim" xəbərdarlığının da əhəmiyyəti olmadı. Molla bir neçə gün sonra onu yenə şəkil çəkdiyi yerdə yaxaladı. Artıq səbri tükənmişdi. Elə həmin gün Əzimi mollaxanadan qovdular.

Valideynləri dindar idilər. Əzimin mollaxanadan qovulması onlara çox ağır təsir göstərdi. Onda hələ Novxanıda yaşayırdılar. Əzimin atası Aslan novxanılı idi. Əzim Əzimzadə də bu kənddə 7 may 1880-ci ildə dünyaya gəlmişdi. 1887-ci ildə şəhərə - Bakıya köçüb gəldilər. 1 May küçəsində üçotaqlı, səliqə-sahmanlı həyət-bacası olan ev aldılar. Çox keçmədi ki, atası həmin üç otağı artırıb, altı otaq etdi. Aslan kişi evinin qazancını, ailəsinin ruzisini daşdan çıxarırdı. Daşyonan idi. Anası Zəhra xanım isə bütün günü ev-eşiyinin iş-gücü, biş-düşü, yır-yığışıyla məşğul olurdu.

Əzim ailəsinin tək övladı, ata-anasının gözünün nuru, bu həyatdakı yeganə ümidi idi. Valideynləri ona korluq verməməyə çalışırdılar. Ata-anasından olsaydı, onu ən yaxşı məktəblərdə oxudar, təhsilli olmasına, ad-san qazanmasına şərait yaradardılar. Amma gün-güzəran dərdi Əzimi 10 yaşından işləməyə məcbur etdi. Muzdlu işlər görməyə başladı. Təhsil almağa da imkan tapdı. 1895-ci ildən 1899-cu ilədək Bakıdakı rus-tatar məktəbində oxudu. Bundan sonra təhsilini davam etdirə bilmədi.

Həyatın qayğıları uşaqlıq illərindən qəlbində yurd salmış arzularını ona unutdura bilmirdi. Fitri istedadı Əzim Əzimzadəni rəssamlığa çəkirdi. Amma bacarığını lazımınca göstərməyə imkanı yox idi.

Beləcə, illər keçdi. Artıq ucaboylu, qamətli, yaraşıqlı gənc olan Əzim söhbətləri, hazırcavablığı, zarafatcılığı ilə ətrafındakıları özünə cəlb edə bilirdi. Yaxşı dostları, ürək sirdaşları vardı. Onlardan biri də aktyor Hacıağa Abbasov idi. Eyni məhəllədə yaşayır, bir-birinin evinə gedib-gəlirdilər. Onları doğmalaşdıran həm də hər ikisinin incəsənətə böyük maraq göstərməsi idi.

Bir gün Əzim yenə Hacıağagildə idi. İki dost söhbət edirdi. Əzim Hacıağanın bacısı qızını da onda gördü. İlk baxışdan aşiq olduğu o gözəl qızın adı Səriyyə idi. Əzimgilin evindən bir-iki tin yuxarıda yaşayırdı.

Valideynləri Əzimin evlənmək qərarını eşidəndə çox sevindilər. Onlar 23 yaşına çatmış oğlanlarının ailə qurmasını, oğul-uşaq sahibi olmasını həsrətlə gözləyirdilər. Elçi getdilər. Gəncləri nişanladılar. Əzimlə Səriyyə 1903-cü ildə ailə qurdular.

Ata-anası ömür karvanını çəkib bu dünyadan gedəndə gözləri arxada qalmadı. Çünki bilirdilər ki, ocaqlarındakı sevgi, mehribanlıq onlardan sonra da əskik olmayacaq. Nəvə sevincini də gördülər. Əzimin ailəsi illər keçdikcə böyüdü. Beş uşaq - üç oğul, iki qız atası oldu. Oğlanları Abdulla, Həbib, Lətif, qızları Pəricahan və Zəhra onun ən şirin arzuları idi.

Həyat ona fitri istedadını göstərməyə meydan da verdi. 1906-cı ildə Ələkbərov qardaşlarının dəyirmanında işlədiyi vaxtlar idi. Tiflisdə yeni nəşr olunmağa başlayan "Molla Nəsrəddin" jurnalı Bakıda da yayılırdı. Hər sayı maraqla qarşılanan bu jurnal Əzimin də çox xoşuna gəlirdi. "Molla Nəsrəddin"də yer verilən karikaturalar isə onun diqqətini xüsusilə cəlb edirdi. Rəssamlardan Rotterin, Şimerlinqin çəkdiyi şəkillərə baxdıqca gözlərinin önündən fərqli-fərqli surətlər ötüb-keçirdi. Onlarla hər gün küçədə, bazarda, toyda, yasda qarşılaşırdı. Əzim Əzimzadə "Molla Nəsrəddin" jurnalının səhifələrində onlara özlərini göstərmək istəyirdi.

1906-cı ildə "Molla Nəsrəddin"in 5-ci sayında dövlətli Bakı tacirlərindən birini lağa qoyan felyeton dərc olundu. Felyetonun sonunda yazılırdı: "Həmin xəbəri nəqqaşımız ittifaqən eşidib möhtərəm Hacıya yeddi manat təklif edir ki, onu bir daha ziyarət etsin. Nə qədər fikirləşirik, heç cür başa düşə bilmirik ki, nəqqaşımızın xəyalı nədir?" Ustalıqla edilən işarəni Əzim Əzimzadə dərhal anladı. Və "Molla Nəsrəddin"in arzusunu həyata keçirdi…

Çəkdiyi ilk karikaturanı Tiflisə - "Molla Nəsrəddin" jurnalının redaksiyasına göndərdi. Həmin şəkil jurnalın 7-ci sayında dərc ediləndə Əzimin sevincinin həddi-hüdudu olmadı. Karikaturanın altında imzasının olmaması da gənc rəssamın sevincinin üzərinə kölgə sala bilmədi. Çünki əsərini "Molla Nəsrəddin" kimi sərraf bəyənmişdi. Jurnala olan marağı bundan sonra daha da artdı. "Molla Nəsrəddin"in Bakıdakı ən fəal oxucularından biri oldu. Jurnalda dərc olunan felyetonlar, karikaturalar Əzimin aşıb-daşan arzularına, ideyalarına istiqamət verir, ona yol göstərirdi. Arabir karikaturalarını "Molla Nəsrəddin"ə göndərirdi. Dərc olunan karikaturalarında hələ də onun imzası verilməsə də, Əzim Əzimzadə dəst-xəti, üslubu görünürdü. Rəssam sonralar həmin karikaturaların altından "mənimdir" yazmaqla müəllifliyini təsdiqlədi.

İlk karikaturasından başlayaraq, "qəhrəmanlar"ını heç vaxt təsadüfən seçmədi. Bakı mühitini, buranın dövlətlisini, kasıbını yaxşı tanıyırdı. Karikaturalara baxanlar da həmin "qəhrəmanlar"ı dərhal tanıyırdılar. Rəssamın düşmənlərinin, ondan narazı olanların sayı bu səbəbdən gündən-günə artırdı. Şəkildəki surətini görüb hiddətlənənlər Əzim Əzimzadənin əlindən yanıqlı idilər. Ehtiyatlı olmalı idi. Odur ki, karikaturalarının bəziləri imzasız, ya da "Ə.Ə", "Ə" və başqa imzalarla dərc edilirdi.

Əzim Əzimzadənin rəssam kimi iştirak etdiyi mətbuat orqanı təkcə "Molla Nəsrəddin" jurnalı



deyildi. "Kəlniyyət", "Baraban", "Məzəli", "Babayi-Əmir", "Zənbur" və digər jurnallarda da bir-birindən maraqlı əsərlərlə çıxış edirdi. Amma onun rəssamlıq yaradıcılığında "Molla Nəsrəddin"in xüsusi yeri vardı. Jurnalın satirik ruhu, ideyaları, məramı Əzim Əzimzadəyə tamamilə uyğun idi.

O, müxtəlif işlərlə də məşğul oldu. "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarının, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarının bədii tərtibatını və geyim eskizlərini verdi. Bu sahədə fəaliyyətini sonralar da davam etdirdi. 1917-ci ildə kitab qrafikasıyla məşğul olmağa başladı. Həmin il çox sevdiyi, "Molla Nəsrəddin" jurnalında çiyin-çiynə çalışdığı şair Mirzə Ələkbər Sabirin "Hop-hopnamə"sinə illüstrasiyalar çəkdi. Bu sahədə bir-birindən maraqlı işləri yenə oldu. Öz qələmini rəssamlığın müxtəlif sahələrində sınadı. Peyzaj, portret və başqa janrlı əsərlər yaratdı. Ancaq Əzim Əzimzadə karikatura janrına həmişə sadiq qaldı.

1920-ci ildə Azərbaycan Maarif Komissarlığının incəsənət şöbəsinə rəhbərlik etmək ona həvalə edildi. 1922-ci ildə Əzim Əzimzadə "Kommunist" (Azərbaycan dilində) qəzetinə baş rəssam təyin olundu. Uzun illər birgə yol gəldiyi "Molla Nəsrəddin" jurnalında da baş rəssam kimi fəaliyyətini davam etdirdi.

Əzim Əzimzadə özü rəssamlıq təhsili almasa da, bir çox məşhur Azərbaycan rəssamının yetişməsində misilsiz xidmətlər göstərmişdir. 1932-ci ildə Bakıda rəssamlıq məktəbinin açılmasında onun böyük rolu oldu. Məktəbin ilk rəhbəri də özü oldu.

Bəxti təkcə sənətində üzünə gülmürdü. Onu yaxşı anlayan, duyan həyat yoldaşı vardı. Əsərlərinin ilk tamaşaçısı da Səriyyə olurdu. Övladları da ağıllı, tərbiyəli, çalışqan idilər.

Bir gün müharibənin başlaması xəbəri qara bulud kimi onların da ailəsinin üzərinə çökdü. Əzim Əzimzadə ocağından cəbhəyə üç oğul getdi. Bundan sonra döyüş xəbərlərini həyəcanla dinləyə-dinləyə keçdi günləri. Əzim Əzimzadə "Fəxr eləyirəm, oğlanlarım torpaq uğrunda, Vətənimiz uğrunda döyüşə gedirlər. Arzum budur, sağ-salamat geri dönsünlər. Qayıtmasalar, yenə fəxr edərəm, Vətən yolunda həlak olublar" deyirdi. Ancaq onun ata qəlbindən qara qanlar axırdı. Üç oğlu çoxları kimi cəbhədə döyüşlərdə, ölümlə üz-üzə idi. O da burada - Bakıda qələmiylə qələbəyə xidmət etdiyini düşünürdü. Düşmənə nifrətini, onun aqibətinin dəhşətli olacağına inamını çəkdiyi karikaturalarda, plakatlarda əks etdirirdi.

Çoxunun ocağına od salan "qara kağız" bir gün onlara da gəldi: "Oğlunuz Lətif Əzimzadə Kerç uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub". Məktubu kiçik qızı Zəhra ilə birgə oxumuşdu. Ona bərk-bərk tapşırdı: "Anan bilməsin, qızım, ona deməməliyik. Səriyyə bu dərdə dözə bilməz". O gündən Lətifin həlak olması ata ilə qızların sirrinə çevrildi. Dərdindən xəbərsiz Səriyyə isə üç oğlundan həyəcanla məktublar gözləyir, onların sağ-salamat olması üçün gecə-gündüz dua edirdi. Amma Əzimi Lətifin dərdi için-için yandırır, əldən salırdı. Ürəyi bu dərdə tablaşmaq istəmirdi. Azərbaycanın böyük rəssamı Əzim Əzimzadə 1943-cü il iyunun 16-da oğlundan aldığı "qara kağız" hələ solub-saralmamış gözlərini əbədi yumdu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*






Ədəbi simalar

## Gecikmiş bəraət

**1937-ci ilin repressiyası Azərbaycan xalqının ədəbiyyatına, mədəniyyətinə, tarixinə böyük zərbələr vurdu. Həmin tuthatut illərində neçə-neçə görkəmli ziyalımız, işıqlı insanımız uydurulmuş bəhanələrlə, qurama məhkəmələrlə heç bir günahı olmadan ən ağır cəzaya - güllələnməyə məhkum edildi. Neçəsi soyuq Sibir çöllərinə sürgün olundu və onlar bir daha geri dönmədilər.**



Ötən əsrin 20-ci illərindən başlayan, 1937-ci ildə fəlakət həddinə çatan və bütün ölkəni çənginə alan repressiyanın ağrı-acıları bu gün də qəlbləri göynədir. Ürək ağrıdan odur ki, günahsızcasına güllələnənlərin, sürgün edilənlərin, həbsxana divarları arasında min bir işgəncə ilə qətlə yetirilənlərin arasında Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və tarixinin böyük zəka sahibləri az deyil. Ölümlərindən bir müddət sonra onlara bəraət verilsə də, ağrılara dərman olmadı.

1937-ci ilin repressiya qurbanlarından biri də 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, dövrünün görkəmli nasiri Hacıbaba Hacı Ələsgər oğlu Nəzərli idi. O, 22 mart 1895-ci ildə Şamaxıda dünyaya göz açmışdı. Azərbaycanın görkəmli şairi M.Ə.Sabirin "Ümid" məktəbini bitirmiş, 1930-1933-cü illərdə Moskvada Qırmızı Professura İnstitutunda təhsil almışdı.

Hacıbaba Nəzərli o dövr mətbuat sahəsində də çalışmışdı. Bakıda nəşr edilən "Qızıl əsgər" qəzetinin redaktoru olmuşdu. Ədəbi fəaliyyətə 1925-ci ildən başlamış H.Nəzərli bir-birindən maraqlı publisist yazıları, oçerk və hekayələri ilə oxucuların diqqətini cəlb etmişdi. Geniş ədəbi fəaliyyətinə görə 1929-cu ildə Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin məsul katibi seçilmişdi. Oçerk və hekayələri ilə yanaşı, Hacıbaba Nəzərli dram janrında da qələmini sınaqdan keçirmişdi. Müxtəlif illərdə "Yollar", "Yanğın" (şərikli), "Sabir" pyeslərini yazmışdı. Bir-birindən maraqlı pyeslər yazmaqla yanaşı, Hacıbaba Nəzərli tərcümə işi ilə də məşğul olmuş, V.Şekspirin "Maqbet", M.Qorkinin "Yeqor Bulıçov və başqaları" əsərlərini Azərbaycan dilinə çevirmişdir.

1934-cü ildən 1937-ci ilə qədər Azərbaycan Dövlət Dram Teatrının direktoru işləmiş Hacıbaba Nəzərlinin yeni cəmiyyət uğrunda mübarizə, köhnəliyin tənqidi mövzularında qələmə aldığı dörd kitabı - "Casusun yardımçısı", "Qışlaqan kəndə", "Laçın", "Satqın", "Ölülər rəqs edərkən" işıq üzü görmüşdür. Görkəmli nasir həm də dövrünün ictimai xadimlərindən biri olmuşdu. 1935-ci ildə Azərbaycan KP XII qurultayında MK üzvlüyünə namizəd, VII Zaqafqaziya Sovetlər qurultayında isə ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

Təəssüflər olsun ki, başının üstünü almış repressiyanın qara buludları onun həm nasir, həm də ictimai xadim kimi fəaliyyət göstərməsinə imkan vermədi. 1937-ci ilin repressiya dalğası Azərbaycanın başqa görkəmli ziyalıları kimi, Hacıbaba Nəzərlinin də ömür və yaradıcılıq yollarını qəflətən kəsdi. Təhlükəsizlik İdarəsinin əməkdaşı Qriqoryanın 9 aprel 1937-ci il tarixli arayışına əsasən, "burjua-millətçi təşkilatının fəal üzvü" kimi həbs olundu. Azərbaycanda sovet hakimiyyətinin qurulmasının fəallarından biri olan Hacıbaba Nəzərli elə həmin rejimin də qurbanı oldu. O, 28 yanvar 1938-ci ildə - 43 yaşında "xalq düşməni" kimi soyuq bir qış günündə güllələndi. Beləliklə, daha bir Azərbaycan ziyalısının ömrünə son qoyuldu, bir evin çırağı söndürüldü.

Hacıbabanın ömür-gün yoldaşını da rahat buraxmadılar. Zivər Nəzərli "vətən xaininin həyat yoldaşı" kimi 10701 istintaq işi ilə 22 noyabr 1937-ci il tarixdən hesablanmaqla 9 aprel 1938-ci ildən cəzasını islah-əmək düşərgəsində çəkməklə 8 il müddətinə azadlıqdan məhrum olundu.

Hacıbala Nəzərlinin ölüm hökmünə qərar verən SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 17 il sonra - 6 oktyabr 1956-cı ildə ona bəraət verdi. Bəraət isə yalnız onun yaxınlarına təsəlli idi. Çünki çıxarılan bəraət hökmü zamanı qaytarmaq gücündə deyildi.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Romada açılan "Ana təbiət" beynəlxalq incəsənət sərgisi fərqli sənətkarları bir araya gətirib

**İtaliya paytaxtının XXI əsr Milli İncəsənət Muzeyində (MAXXI) açılan "Ana təbiət" beynəlxalq incəsənət sərgisində 28 ölkədən 55 sənətkarın əsərləri nümayiş olunur.**

Sərgidə fərqli instalyasiya, rəsm və multimedia nümunələri vasitəsilə müasir dövrün ekoloji və sosial problemləri ilə səsləşən hekayələr təqdim edilir. MAMA "Ana təbiət" incəsənət layihəsi müasir rəssamlar qrupunun heyrətamiz yaradıcılığının nümayişidir. Layihə Azərbaycan, ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Koreya Respublikası, Gürcüstan, Hindistan, İspaniya, İsrail, Latviya, Pakistan, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələrdən olan fərqli sənətkarları bir araya gətirib. Layihə iştirakçıları incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır.

Sərgi ziyarətçilərindən İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi AZƏRTAC-a müsahibəsində deyib: "İkinci dəfədir gəldiyim XXI əsr Milli İncəsənət Muzeyində belə möhtəşəm layihənin təqdim olunduğunu görmək çox xoşdur. Buranı ziyarət etmək, nümayiş olunan hər bir əsərlə yaxından tanış olmaq insana böyük zövq verir. Şadam ki, bütün sərgi ziyarətçiləri bu fürsətdən istifadə edirlər. Bu sərgi həmçinin İtaliya ictimaiyyətinə Azərbaycan mədəniyyəti və incəsənəti haqqında daha çox məlumat verməyə imkan yaradır".



İtaliyalı incəsənət nümayəndəsi Massimo D`Ayuto AZƏRTAC-a bildirib ki, sərgidə təqdim edilən hər bir əsərdə dərin məna ifadə olunub: "Bu incəsənət nümunələri insanda böyük hisslər oyadır, planetimizin üzləşdiyi çətinlikləri bir daha anlamağa, gələcək nəsilləri bu ekoloji və sosial problemlərdən qorumağın vacibliyini dərk etməyə səbəb olur. Biz bir daha dərk edirik ki, insanla təbiət arasında zəngin və mürəkkəb münasibətlər, ayrılmaz bağlılıq var".

Ziyarətçilərdən Stefano Traldi isə sərgidə təqdim olunan incəsənət nümunələrinin onda çox böyük maraq doğurduğunu qeyd edib. Bildirib ki, bu əsərlərin hər biri gələcəyimiz üçün böyük məna daşıyır.

MAMA "Ana təbiət" incəsənət layihəsi debütünü ötən ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Mərkəzində edib. Sərgi iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə Bəhreyndəki təqdimatla səyahətə başlayıb. Bəhreyndən sonra Romada layihə təqdim olunub. Sərgi mayın 14-dək davam edəcək.

## Azərbaycan musiqiçiləri Fücəyrə Beynəlxalq Ud Forumunda uğurla təmsil olunublar

**Birləşmiş Ərəb Əmirliklərinin Fücəyrə əmirliyində "Bir ud, müxtəlif mədəniyyətlər" şüarı altında keçirilən Fücəyrə Beynəlxalq Ud Forumunun açılış mərasimi olub. Forum Fücəyrə Valisinin vəliəhd şahzadəsi, əlahəzrət Şeyx Məhəmməd bin Həməd əl-Şərqinin dəstəyi ilə həyata keçirilib.**

Bakı Musiqi Akademiyasından bildirilib ki, tədbirin açılış mərasimində 50 beynəlxalq musiqiçidən ibarət orkestrin müxtəlif musiqi janrlarını birləşdirən konsert proqramı təqdim olunub. Forum çərçivəsində fərdi və qrup çıxışları, ustad dərsləri, eləcə də tanınmış ud ifaçılarının iştirakı ilə maraqlı sərgilər təşkil edilib.

Azərbaycan musiqiçiləri də bu nüfuzlu beynəlxalq tədbirdə fəal iştirak ediblər. İste-



dadlı musiqiçilərimiz Rəşad İbrahimov, Təbriz Yusubov, Çinarə Heydərova, Nisbət Sədrayeva, İdris Hüseynov, Vüsal Bayramov və Rafael Əsgərov yüksəksəviyyəli çıxışları ilə tamaşaçıların və münsiflərin rəğbətini qazanaraq mükafatlandırılıblar.

Bakı Musiqi Akademiyasının prorektoru, Xalq artisti, professor Yeganə Axundova isə forumda fəxri qonaq qismində iştirak edib.




## Dünya çempionatında komanda sayı artırılacaq



**FİFA qadınlar arasında dünya çempionatının iştirakçılarının sayını 48 komandaya çatdırmaq qərarına gəlib. Bu barədə qurumun Mətbuat xidməti məlumat yayıb.**

Yeni qərara əsasən, qrup mərhələsindəki qrupların sayı 8-dən 12-yə, ümumi oyunların sayı isə 64-dən 104-ə yüksələcək. Turnirin keçirilmə vaxtı hazırkı 32 komanda formatı ilə müqayisədə bir həftə çox olacaq.

Dəyişikliklər 2031-ci il dünya çempionatından qüvvəyə minəcək. 2027-ci ildə Braziliyada keçiriləcək qadınlar arasında dünya çempionatı eyni sayda - 32 iştirakçı ölkə ilə keçiriləcək.

## "Neftçi"nin rəhbərliyi Samir Abasovun qarşısına məqsəd qoydu



**"Neftçi"nin gələn mövsüm üçün məqsədi məlum olub. "Ağ-qaralar" avrokuboklara vəsiqə uğrunda mübarizə aparacaqlar. Bu, klub rəhbərliyinin Samir Abasov qarşısında qoyduğu hədəfdir.**

Baş məşqçi istər Premyer Liqada, istərsə də ölkə kubokunda uğurlu nəticələr qazanacaqlarına, azarkeşləri sevindirəcəklərinə dair rəhbərliyə vəd verib.

Müşahidə Şurasının bəzi üzvlərinin də iştirak etdiyi yığıncaqda komandanın bu mövsümdəki çıxışı geniş müzakirə olunub. Nəticələr qeyri-qənaətbəxş sayılıb. İclasda bir çox irad və təklif səsləndirilib.

Baş məşqçi ilə bağlı məsələ də gündəmə gəlib. Ötən ilin oktyabrında Roman Qriqorçuku əvəzləmiş Samir Abasovun postunda saxlanılması lazım bilinib.

Ona gələn mövsüm görüləcək işlərlə bağlı plan hazırlaması tapşırılıb.



## Güləşçilərimiz "Çempionlar" turnirini 6 medalla başa vurublar

**Türkiyənin Antalya şəhərində keçirilən gənclər (U20) arasında "Çempionlar" turnirinə yekun vurulub. Son yarış günündə 63, 82, və 130 kiloqramda yer alan yunan-Roma güləşçilərimiz mübarizə aparıblar.**

İlk və ikinci gündə olduğu kimi, sonuncu gündə də 1 gümüş və 1 bürünc medal qazanılıb. Tural Əhmədov (63 kq) ikinci, Elmin Əliyev (82 kq) üçüncü yeri tutub. Beləliklə, millimiz ənənəvi turniri 6 (3 gümüş, 3 bürünc) medalla başa vurub. Öncəki günlərdə Turan Daşdəmirovla (55 kq) Ayxan Cavadov (60 kq) gümüş, Vədat Qasımlı (60 kq) və İsmayıl Rzayev (97 kq) isə bürünc medal əldə ediblər.

Böyük məşqçi Nurəddin Rəcəbov, məşqçilər Emin Əhmədovla Turac Hüseynlinin rəhbərliyi altında Antalyaya yollanan yığmamız 122 xalla komanda hesabında 2-ci yeri tutub. İran (128) birinci, Qırğızıstan (115) isə üçüncü olub.



## Xabi Alonso "Bayer"dən ayrılır

**Almaniyanın "Bayer" komandasının baş məşqçisi Xabi Alonso mövsümün sonunda Leverkuzen təmsilçisindən ayrılacaq.**

Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Tərəflər müqaviləyə xitam verilməsi ilə bağlı razılığa gəliblər.

Qeyd edək ki, Xabi Alonso 2022-ci ildən "Bayer"ə rəhbərlik edir.

## "Əl-Nəsr" Ronaldo ilə müqavilədən imtina edə bilər

**Kriştiano Ronaldonun "Əl-Nəsr"dəki gələcək taleyi sual altındadır. 40 yaşlı hücumçunun davranışları klub rəhbərliyinin onunla bağlı fikirlərində tərəddüd yaradıb.**

Ronaldonun "Əl-Nəsr"in Səudiyyə Ərəbistanı Pro Liqasının 30-cu turunda "Əl-İttihad"a uduzduğu (2:3) matçdan sonrakı hərəkətləri klub rəhbərliyinin xoşuna gəlməyib. Oyundan dərhal sonra portuqaliyalı futbolçu soyunub-geyinmə otağına getməyib və hirsli jestlər edərək stadionu tərk edib.

Yerli medianın yazdığına görə, "Əl-Nəsr"lə Ronaldo əvvəlcə müqavilənin müddətini 2 il uzatmaq barədə razılığa gəliblər, lakin hazırda vəziyyət dəyişib.

Qeyd edək ki, 2023-cü ildən "Əl-Nəsr"də çıxış edən Ronaldonun klubla müqaviləsi iyunun 30-na qədərdir.





## Ayxan Abbasov hakimdən narazıdır

**"Şamaxı"nın baş məşqçisi Ayxan Abbasov Misli Premyer Liqasının 34-cü turunda "Sabah"a 1:3 hesabı ilə uduzduqları oyunu şərh edib.**

O, matçdan sonra keçirilən mətbuat konfransında xal qazanmaq istədiyini deyib: "Bu mövsüm "Sabah"la oyunlarımız mübarizəli keçirdi.

Rəqib bu il bizə qalib gəlməmişdi. Bu gün bacardılar. Standart vəziyyətlərdə uduzduq. Gənc futbolçulara şans verdik. Heyətdə dəyişikliklər etmişdim. Bəzi oyunçuları meydanda görmək istəyirdim. Buna baxmayaraq, futbolçularıma ilboyu göstərdikləri mübarizəyə görə təşəkkür edirəm. "Şamaxı" qarşısına qoyulan məqsədə çatdı. Mövsüm bitəndən sonra gələcək planlar haqda fikirləşəcəyik".

Mütəxəssis bildirib ki, oyunun baş hakimi Fərid Hacıyevdən həmişə narazı olub: "Çox danışmaq istəmirəm. Deyirik, gəncdirlər, həmişə dəstək oluruq. Top çıxıb, amma cərimə verir. Ayıbdır. Uşaqların bu boyda əziyyətini yerə vurur. Həmin hücum künc zərbəsi oldu. O da qolla nəticələndi. Neçə epizod oldu ki, sarı vərəqə vermədi. Bundan sadə epizodlarda bizə "sarı" verirlər. Fərid Hacıyev oyunu zəif idarə etdi. Bu hakim bizim oyunlarda çox zəif idarə edir. Bilmirəm, nədən irəli gəlir".

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




## Çat-botların qısa cavabları yanlış ola bilər

**Fransanın "Giskard" şirkətinin tədqiqatçıları belə qənaətə gəliblər ki, "ChatGPT" və digər süni zəka köməkçilərinin cavabları nə qədər qısadırsa, yanlış məlumat təqdim etmə ehtimalı da bir o qədər yüksək olur. "Qısa cavab ver" və ya "iki cümlə ilə izah et" kimi sorğular modelləri həqiqəti təhrif etməyə və qeyri-dəqiq cavablar verməyə vadar edir.**




Məlumata əsasən, tədqiqat zamanı mütəxəssislər "OpenAI GPT-4o", "Mistral Large" və "Anthropic Claude 3.7 Sonnet" də daxil olmaqla məşhur dil modellərinin davranışlarını təhlil edərək müəyyənləşdiriblər ki, xüsusilə qeyri-müəyyən və mübahisəli mövzularda qısa cavab tələbi modellərin daha çox səhv məlumat vermələrinə səbəb olur.

Halüsinasiyalar generativ süni zəka sahəsində hələ də həll olunmamış problemlərdən biri olaraq qalır. Hətta qabaqcıl modellər belə bəzən mövcud olmayan faktlar uydura bilirlər. Tədqiqat müəlliflərinin sözlərinə görə, məntiqə əsaslanan cavablar verməyə yönəlmiş yeni nəsil modellər daha tez-tez halüsinasiyaya meyilli olurlar ki, bu da cavabların etibarlılığına mənfi təsir göstərir.

Bildirilir ki, səhvlərə meyilliliyin əsas səbəblərindən biri izah üçün məhdud yerin olmasıdır. Modeldən qısa cavab istənildikdə, o, mövzunu tam şəkildə izah edə və sorğuda yer alan yanlış fərziyyələri təkzib edə bilmir. "Giskard" mütəxəssisləri süni zəka üçün təlimatların daha diqqətlə seçilməsini və cavab uzunluğuna sərt məhdudiyyətlər qoymaqdan qaçmağı tövsiyə edirlər.

## "Samsung"un növbəti smartfonu

**"Samsung" şirkəti "Galaxy F" smartfon seriyasının yeni modelini təqdim edib. Söhbət "Galaxy F56"dan gedir.**

O, böyük ölçülü ekranı və "Exynos" prosessorunu əldə edib. Beləliklə, "Galaxy F56" 120 Hz-lik təsvir yenilənməsinə sahib "Full HD+" keyfiyyətli 6,7 düym ölçülü OLED ekranla təchiz olunub. Maksimal parlaqlıq səviyyəsi 1200 nit təşkil edən ekran "Gorilla Glass Victus+" qoruyucu şüşəsi ilə əhatə olunub.

"Samsung"dan bildirilib ki, bu, "Galaxy F" seriyasının ən nazik gövdəli smartfonudur. Belə ki, onun gövdə qalınlığı 7,2 mm təşkil edir. "Exynos 1480" prosessoru vasitəsilə çalışan smartfon 50 MP-lik əsas arxa kameraya və 12 MP-lik ön kameraya sahibdir. Batareyaya gəldikdə isə cihaz 45 vatt gücündə sürətli şarj texnologiyalı 5000 mAh enerji tutumlu batareya ilə təchiz olunub.



## Xərçəngin aşkarlanmasında üztanıma texnologiyası

**ABŞ tədqiqatçıları "FaceAge" alqoritmi sayəsində xərçəng xəstələrinin bioloji yaşını və sağqalma ehtimallarını sadəcə üz fotosu əsasında proqnozlaşdıra biliblər. Araşdırma çərçivəsində məlumat bazalarından 58 min 851 insanın fotosundan istifadə edilib.**

Sonra alqoritm radioterapiya müalicəsi qabağı fotoları çəkilmiş 6196 xərçəng xəstəsi üzərində sınaqdan keçirilib. Alqoritm xərçəng xəstələrinin sağlam insanlarla müqayisədə orta hesabla beş yaş daha yaşlı göründüyünü aşkar edib və bu fərq ümumi sağqalma ehtimalları ilə sıx əlaqəli olub.

Tədqiqatda iştirak edən professor Rey Mak qeyd edib ki, bu texnologiya yalnız xərçəngin nəticələrinin proqnozlaşdırılması ilə məhdudlaşmır: "Bu yanaşma yeni imkanlar açır. İnsanların qocalma trayektoriyasını daha dəqiq izləmək və müxtəlif xroniki xəstəliklərin erkən aşkarlanması üçün bu texnologiyanın etik və tənzimlənən çərçivədə tətbiqi həyat qurtaran rol oynaya, gələcəkdə daha fərdi və dəqiq tibbi yanaşmalara yol aça bilər".

## BƏƏ-nin tədris sistemində innovativ dəyişiklik

**Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) yeni tədris ilindən etibarən süni zəkanı məktəbəqədər və məktəb təhsil proqramına daxil etməyi planlaşdırır.**




O, bununla da regionda uşaqları erkən yaşdan süni zəka ilə işləməyə öyrədən ilk ölkələrdən biri olacaq. Proqram həm texniki aspektləri, həm də texnologiyanın praktiki tətbiqlərini əhatə edir. Hakimiyyət orqanları ümid edirlər ki, yeni nəsil mütəxəssislər ölkənin qlobal arenadakı mövqeyini möhkəmləndirəcəklər.

"OpenAI"nin rəhbəri Sam Altman bildirib ki, BƏƏ süni zəka texnologiyalarının sınaqdan keçirilməsi üçün "tənzimləyici qum qutusu" rolunu oynaya və sonradan onların istifadəsi üzrə qlobal standartları müəyyən edə bilər. Hazırda ABŞ "NVIDIA" şirkətinin BƏƏ-yə çip tədarükünə qoyduğu məhdudiyyətləri yumşaltmaq imkanını nəzərdən keçirir. Bu isə yerli süni zəka sənayesinin inkişafını əhəmiyyətli dərəcədə sürətləndirə və ölkənin regiondakı mövqeyini gücləndirə bilər.

Daha geniş strateji əməkdaşlıq çərçivəsində BƏƏ bundan əvvəl ABŞ-də energetika, yarımkeçiricilər, süni zəka infrastrukturu və istehsal sahələrinə növbəti 10 ildə 1,4 trilyon dollara qədər investisiya yatırmağı planlaşdırdığını açıqlayıb. Məktəb təhsilinə süni zəkanın inteqrasiyası da bu geniş strategiyanın əsas elementlərindən biri olacaq.

## İnsanabənzər robot patrul xidməti göstərir

**Çinin Şençjen şəhərində polis ilk dəfə olaraq ictimai yerlərdə patrul xidməti aparmaq, itkin düşmüş uşaqları axtarmaq və turistlərə yardım göstərmək məqsədilə insanabənzər robotdan istifadə edib.**




"Engine AI" şirkətinin "PM01" robotu ictimai təhlükəsizliyin dəstəklənməsi məqsədilə robot texnologiyalarının geniş tətbiqi təşəbbüsü çərçivəsində ictimaiyyətə təqdim olunub.

Hündürlüyü 140 sm, çəkisi isə 40 kq olan bu robot real polis işçilərinə ictimai yerlərin monitorinqi və turistlərə yardım kimi gündəlik tapşırıqlarda kömək edəcək. Robot tamamilə avtonom icraçı deyil, daha çox polisə gündəlik vəzifələrin yerinə yetirilməsində kömək göstərmək üçün nəzərdə tutulmuş dəstək sistemidir. O, parlaq rəngli jilet geyinir və sənaye səviyyəli ötürücülərlə, həmçinin 320 dərəcə dönə bilən gövdə ilə təchiz olunub ki, bu da ona ayaqlarını tərpətmədən ətraf mühiti skan etməyə imkan verir.

Robot üztanıma sisteminə malik kameralara və mikrofon massivinə sahibdir. O, dialektləri anlayır, yoldan keçənləri salamlayır, itmiş uşaqlar haqqında məlumat verir və insanların şübhəli hərəkətləri barədə məlumatları dispetçer mərkəzinə ötürə bilir. "PM01"in qiyməti təxminən 14 min dollar təşkil edir.

## Çin limanların avtomatlaşdırılması sahəsində liderdir

**Çində artıq 52 avtomatlaşdırılmış terminal tikilib. Bu həm istismar edilən, həm də tikilməkdə olan obyektlərin sayına görə dünyada ən yüksək göstəricidir.**

Yükaşırma müəssisələrinin avtomatlaşdırılması sahəsində lider olan Çin ağıllı limanlar üçün texniki standartları da fəal şəkildə inkişaf etdirir. Ölkənin müasir limanlarında bütün əməliyyatlar uzaqdan idarə olunur. Məsələn, Şandun əyalətindəki Sindao limanında avtomatlaşdırılmış kranlar konteynerləri pilotsuz nəqliyyat vasitələrinə ötürür. Nəticədə səmərəlilik 6 faiz, ötürücülük qabiliyyəti isə 15 faiz artıb.

## "Toyota"nın yeni elektromobili

**"Toyota" şirkəti "bZ5 FieldGo" elektrik avtomobilini nümayiş etdirib. "bZ5" "Toyota" və onun Çin tərəfdaşı "FAW" şirkətinin birgə səyi ilə yaradılmış kupe-krossoverdir. Hazırda bu, sadəcə konsepsiyadır.**

"bZ5" xarici görünüşcə "bZ4X" elektrik krossoverinə çox bənzəsə də, o, tamamilə fərqli avtomobildir. BYD mühərrikləri sayəsində elektromobil 27 dəqiqə ərzində 30-dan 80 faizə qədər sürətli enerji doldurur. Sınaq dövrünə əsasən, "bZ5" bir dəfə doldurulmaqla, təxminən 650 kilometr yol qət etmək iqtidarındadır.



## Süni intellekt pişiklərin dilinin başa düşülməsinə imkan yaradacaq

**Süni intellekt insanlara pişikləri anlamağa kömək edəcək. Çinin "Baidu" şirkətinin təqdim etdiyi patentin reallaşdırılması sayəsində pişiklərin dilini insan dilinə çevirmək mümkün olacaq.**

Yeni texnologiya heyvanın səsini, davranışını, bədən dilini və biosiqnallarını təhlil edəcək. Sonra bu məlumatlar süni intellekt tərəfindən işlənəcək. Bunun əsasında pişiyin emosional vəziyyəti müəyyənləşdirilərək insan dilinə çevriləcək. Beləliklə, heyvanı başa düşmək, eləcə də onun səhhətini izləmək mümkün olacaq. Sözügedən texnologiyanın yaradılması prosesi beş ilə qədər çəkə bilər.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## *Azərbaycan XİN:* "Hindistan ilə Pakistan arasında elan edilmiş atəşkəsi alqışlayırıq"

**"Azərbaycan Hindistan Respublikası ilə Pakistan İslam Respublikası arasında elan edilmiş atəşkəsi alqışlayır".**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb.

"Bu atəşkəsin regionda gərginliyin azaldılmasına, eləcə də davamlı sülh və sabitliyin bərqərar olunmasına töhfə verəcəyinə ümidvarıq. Tərəfləri mövcud məsələlərin həlli istiqamətində və qarşılıqlı etimadın yaradılmasına yönəlmiş məhsuldar dialoqa çağırırıq", - məlumatda deyilir.

## *Türkiyə XİN:* "Pakistan ilə Hindistan arasında əldə edilən atəşkəsdən məmnunluq duyuruq"

"Pakistan ilə Hindistan arasında atəşkəs ilə bağlı qərarın qəbul edilməsindən məmnunluq duyuruq".

AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyənin Xarici İşlər Nazirliyinin (XİN) mövzu ilə bağlı bəyanatında yer alıb.

"Tərəfləri birbaşa və sağlam dialoqun təmini üçün atəşkəsin verdiyi bu fürsətdən maksimum yararlanmağa çağırırıq. Cənubi Asiyada sabitliyin davamlılığı baxımından, terrorla mübarizə sahəsi də daxil olmaqla, oxşar gərginliklərin qarşısını ala biləcək dialoq mexanizmlərinin qurulmasının vacibliyi aşkardır. Başda ABŞ olmaqla, atəşkəsin əldə olunmasına töhfə verən bütün ölkələrə təşəkkürümüzü bildiririk", - deyə bəyanatda vurğulanır.

## Hindistan və Pakistan ABŞ-nin vasitəçiliyi ilə atəşkəs barədə razılığa gəliblər

**"Birləşmiş Ştatların vasitəçiliyi ilə gecə boyu uzun davam edən danışıqlardan sonra məmnuniyyətlə elan edirəm ki, Hindistan və Pakistan tam və təcili atəşkəs barədə razılığa gəliblər".**



AZƏRTAC-ın məlumatına görə, bu barədə ABŞ Prezidenti Donald Tramp deyib. O, hər iki ölkəyə sağlam düşüncə və ağıl sərgilədiyi üçün minnətdarlığını bildirib.

ABŞ Dövlət katibi Marko Rubio isə danışıqları vitse-prezident Cey Di Venslə birlikdə 48 saat müddətində hər iki ölkənin yüksək səviyyəli rəsmiləri ilə apardıqlarını açıqlayıb. Onun sözlərinə görə, atəşkəs razılığına gələn ölkələr neytral ərazidə geniş danışıqlara başlayacaqlar.

## London və Vaşinqton arasında yeni ticarət sazişi imzalanıb

**ABŞ və Böyük Britaniya yeni ticarət razılaşması əldə ediblər. Bu barədə ABŞ Prezidenti Donald Tramp və Böyük Britaniyanın Baş naziri Kir Starmer telefon danışığından sonra bildiriblər.**



Trampın dediyinə görə, müqavilə Amerika məhsullarının ixracına, xüsusən Britaniyanın kənd təsərrüfatı sektoruna milyardlarla dollar dəyərində geniş çıxışı nəzərdə tutur. AFP agentliyinin aydınlaşdırdığı kimi, bu, əsasən mal əti və bioetanola aiddir. Əvəzində isə ABŞ-nin təyyarə istehsalçısı Boeing üçün milyardlarla funt sterlinq dəyərində Britaniya sifarişləri gözlənilir.

Ağ Ev rəhbəri bu sazişi "Azadlıq günündən bəri ilk tarixi ticarət razılaşması" adlandırıb. O, ABŞ-nin bu ticarətdən 6 milyard dollar (5,3 milyard avro) gəlir əldə edəcəyini, həmçinin fermerlər, maldarlar və digər istehsalçılar üçün 5 milyard dollar (4,4 milyard avro) yeni ixrac imkanları əldə edəcəyini bildirib. Bundan əlavə, alüminium və polad üçün ikitərəfli ticarət zonası yaradılacaq, əczaçılıq məhsulları üçün təhlükəsiz təchizat zənciri təmin ediləcək.

Amerika mediası xəbər verir ki, ABŞ Hindistan və İsraillə də ticarət sazişləri bağlamağa yaxındır və Yaponiya, Cənubi Koreya və Vyetnam da daxil olmaqla bir sıra digər ölkələrlə bu səpkidə danışıqlar aparılır.

***R.HİLALOĞLU,***
***"Azərbaycan"***

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub



Mayın 10-u saat 09:55-də Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, bundan başqa Ermənistan Müdafiə Nazirliyi guya Azərbaycan Ordusunun bölmələri tərəfindən Xanazax yaşayış məntəqəsi istiqamətində atəş açılması və yaşayış evinin zədələnməsi barədə tamamilə yalan və dezinformasiya məqsədi daşıyan məlumat yaymaqla beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmağa və növbəti təxribatlarına zəmin yaratmağa cəhd edir.

Qeyd olunub ki, Azərbaycan Ordusunun bölmələri heç vaxt mülki əhaliyə və obyektlərə atəş açmır.

Bölmələrimiz tərəfindən yalnız qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

## Bilmək istəyirəm

*Məişət zorakılığına məruz qalan şəxs özünü qorumaq üçün nə etməlidir?*

***Səbahət DADAŞOVA,***
***Xaçmaz rayonu***

✓ Sualınızda qeyd olunan halların qarşısının alınması "Məişət zorakılığının qarşısının alınması haqqında", "Psixoloji yardım haqqında" qanunlarda, Mülki və Cinayət Prosessual məcəllələrdə və digər əlaqəli qanunvericilik aktlarında qeyd olunmuşdur.

Qanunun 6-cı maddəsinə uyğun olaraq, məişət zorakılığından zərər çəkən şəxsin və ya onun ailə üzvünün şikayəti əsasında ərazi üzrə polis orqanı tərəfindən araşdırma aparılmalıdır. Araşdırma zorakılıq törədən şəxsin əməlində cinayət tərkibinin əlamətlərinin olub-olmamasından asılı olaraq həyata keçirilir. Əgər şəxsin əməlində cinayət tərkibinin əlaməti varsa, polis orqanı tərəfindən cinayət təqibi aparılır və bu zaman polis orqanı zərurət olduqda zərərçəkmiş şəxsin dövlət vəsaiti hesabına hüquqi yardımla, dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya və psixoloji korreksiya kursunun aparılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat göndərməli, məişət zorakılığının yaranmasına səbəb olan halları aşkar etmək və onların qarşısını almaq istiqamətində tədbirlər görməli, məişət zorakılığının qarşısının alınmasını, onun təkrarlanmamasını, araşdırmanın aparıldığı müddət ərzində zərərçəkmiş şəxsin təhlükəsizliyini təmin etməli, habelə zərərçəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər və sair əlaqəli işləri görməlidir.

Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə baxılarkən zərərçəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi hüququ izah edilir.

"Mühafizə orderi" dedikdə məişət zorakılığı törətmiş şəxsin zərərçəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə tətbiq olunan məhdudiyyətlər haqqında akt başa düşülməlidir. Zərərçəkmiş şəxsə qısamüddətli (polis orqanı tərəfindən) və ya uzunmüddətli (məhkəmə tərəfindən) mühafizə orderi verilir. Qısamüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilir: a) məişət zorakılığının təkrar törədilməsi; b) zərərçəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması; c) zərərçəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi.

Uzunmüddətli mühafizə orderində yuxarıda qeyd olunanlarla yanaşı, aşağıdakılardan biri və ya bir neçəsi göstərilir: a) məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları; b) yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi; c) zərərçəkmiş şəxsə tibbi və hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri; d) mühafizə orderinin tələblərini icra etməyən şəxsin qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunmasının izah edilməsi haqqında məlumat.

Bundan başqa, zəruri hallarda zərərçəkmiş şəxsə hüquqi yardım göstərmək, onu dövlət yardım mərkəzində müvəqqəti sığınacaq (2 ay müddətinədək), geyim və qida məhsulları, tibbi və "Psixoloji yardım haqqında" qanuna müvafiq qaydada psixoloji yardımla təmin etməklə bağlı araşdırma aparan orqan tərəfindən tədbirlər görülür.

Əlavə edək ki, siz zərərçəkmiş şəxs olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 860 "Qaynar xətti"nə hüquqi yardım alınması və digər qabaqlayıcı tədbirlərlə bağlı müraciət edə bilərsiniz.

*Bir şəxsin iş yerindəki davranışı digər işçiləri narahat edirsə, kimisə psixoloji təzyiqlərə məruz qoyursa, bu halda hansı hüquqi addımlar atıla bilər?*

***Səma TEYMUROVA,***
***Bakı şəhəri***

✓ Sualınızda qaldırılan məsələ BMT-nin 1966-ci il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktı, Azərbaycan Respublikasının Əmək Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi ilə tənzimlənməkdədir.

Paktın 7-ci maddəsinə əsasən, hər kəsin onun təhlükəsizliyinə təminat verən ədalətli və münasib iş şəraiti hüququ vardır.

Əmək Məcəlləsinin 9, 12, 14 və 186-cı maddələrinə görə: a) işçinin əmək hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək və hüquqi müdafiə olunmaq, həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin edən əmək şəraitində çalışmaq, habelə belə şəraitin yaradılmasını tələb etmək hüququ; b) işəgötürənin işçilərin ərizə və şikayətlərinə qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada baxmaq vəzifəsi; c) həmçinin dövlətin işçilərin sağlam və təhlükəsiz əmək şəraitinin təmin olunması üzrə vəzifələri mövcuddur.

Təhlükəsiz əmək şəraiti dedikdə həmçinin işçilərin öz əmək funksiyalarını hər hansı təzyiqdən kənar icra etməsi üçün yaradılmış şərait başa düşülməlidir. Bu şəraitin yaradılmaması işçinin hüququnun kobud pozuntusu olaraq qiymətləndirilə bilər.

Beləliklə, siz baş vermiş hadisədən yaranmış hüquqlarınızın pozulması ilə bağlı qanunvericiliyə uyğun olaraq, işəgötürənə (rəhbərliyə və ya insan resursları şöbəsinə) yazılı müraciət edə, Dövlət Əmək Müfəttişliyi Xidmətinə şikayət təqdim edə, əgər daxili imkanlar nəticə verməzsə, öz yaşayış yerinizin məhkəməsinə müraicət edə bilərsiniz.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

*Bazar günü etüdü*



## Vüqarlı, əzəmətli dağlar

*Dünyada elə bir şair varmı ki, dağlara şeir yazmasın, onun vüqarını, əzəmətini vəsf etməsin, qələminin, sözünün, düşüncəsinin gücünü bu mövzuda sınaqdan keçirməsin?!*

*Elə bir bəstəkar varmı ki, dağların gözəlliyini nəzmə çəkən misraları oxuyanda qəlbi coşmasın və həmin coşqunu nəğməyə çevirməsin?! Elə bir müğənni varmı ki, bu nəğməni şövqlə, böyük sevgi və məhəbbətlə oxumasın?! Təbii ki, nə belə şair, nə belə bəstəkar, nə də belə müğənni var. Çünki yaradıcı insanlar gözəllik aşiqidirlər, gözəlliyin heyranı, bənzərsizliyin vurğunudurlar. Elə şeirlər də, mahnılar da bu vurğunluqdan, heyranlıqdan yaranır. Sözlər, nəğmələr ürəkləri cuşa gətirən aşiqlikdən doğur.*

*Yaşıllığa bürünmüş dağlara şeir yazmaq, onların gözəlliyini nəzmə çəkmək, sözün sığal-tumarına yatırtmaq sanki şairlərin yaradıcılıq zirvəsidir. Onlar ömrü boyu bu əlçatmaz zirvəyə qalxmağa can atırlar. Həm dağın, həm də yaradıcılıqlarının zirvəsinə çatmağa çalışırlar. Məqsədlərinə yetmək üçün şairlər sözlərlə mehribancasına pıçıldaşır, fikirlərlə danışırlar. İsti, ilıq pıçıltılardan, fikirlərdən güc alaraq bulaq kimi qaynayıb, sellər kimi daşırlar. Sanki yorulmaq bilmədən bir-biri ilə yarışırlar.*

*Dağlara ülfət bağlayıb şeir yazanlar, ona mehr salıb vəsf edənlər elə dağlar kimi vüqarlı, düz ilqarlı olurlar. Ucadan-uca, qocadan-qoca dağlardan yazdıqca ondan güc alırlar. Dağların bənzərsiz əzəmətindən ilhama gəlib yazdıqca yazırlar. Beyinlərində dolaşan işıqlı fikirləri, isti düşüncələri ilə yeni-yeni əsərlərin bünövrəsini qazırlar.*

*Başı dumanlı, zirvəsi qarlı dağlardan necə yazmayasan, onları necə nəzmə çəkməyəsən?! Bu gözəllik qarşısında necə fikrə gedib düşünməyəsən, necə səcdə etməyəsən?! Adları eyni olsa da, özləri fərqlidir, bənzərsiz, qənirsizdir dağlar. Biri o birindən uca, biri o birindən bir az qocadır. Birinin zirvəsi o birindən dikdir, amma sinəsi genişdir, biri o birindən xeyli enişdir. Amma hamısı həmişə yaşıllığa bürünür, daim zirvələrində duman sürünür. Bax, bu gözəllikləri necə nəzmə çəkməyəsən, sözləri toxum kimi ağ vərəqlər üzərinə necə səpməyəsən?!*

*Zaman-zaman insanların əlləri hər yerdən üzüləndə, ümidləri tükənəndə yaşamaq, daldalanmaq, qorunmaq üçün dağlara üz tutub, onlara pənah aparıblar. Dağları özlərinə arxa biliblər, onlara sığınıb, onlara güvənib, həyatlarını onlara etibar ediblər. Ucadan-uca olan dağlara sığınanda dərdlərini unudublar, həyatın güvənliyini dadıblar. Hərdən də ağrı-acılarını, həyatda gördükləri ədalətsizlikləri, narazılıqları, qarşılaşdıqları haqsızlıqları dağlara söyləyib, onlara şikayətlənib, dərd-sərlərini onlarla bölüşüblər. Ümidlə dağlardan kömək gözləyiblər. Dağlar da nə qədər zirvəsi qarlı, şaxtalı olsa da, heç vaxt insanlardan soyumayıb sanki.*

*Vəsfinə qoşulan şeirlərdən, nəğmələrdən dağlar neçə illərdir insanlarla dostluq, qardaşlıq edir. Qoynundakı bulaqların suyunu insanlarla bölüşür, çiçəkləri ilə insana dərd-səri unutdurur. Gəlin biz də başı buludlara söykənən, Ayla, ulduzlarla salamlaşan, pıçıldaşan dağlara şeirlər yazaq, mahnılar bəstələyək ki, onlar kimi hər zaman qüdrətli, qürurlu, vüqarlı, əzəmətli və bir də ədalətli olaq.*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Gələcək nəsillər artan iqlim riskləri ilə qarşı-qarşıyadır

**Son illərdə aparılan iqlim araşdırmaları göstərir ki, gənc və gələcək nəsillər əvvəlki dövrlərlə müqayisədə daha ciddi və tez-tez baş verən ekstremal hava hadisələrinə məruz qalacaqlar. Təhlillər təsdiq edir ki, əgər qlobal istiləşmə tendensiyası davam edərsə, bu nəsillər normalda hər 10 min ildə bir dəfə baş verən ekstremal hadisələrlə öz həyatları boyu dəfələrlə qarşılaşa bilərlər.**

AZƏRTAC "Science Daily" portalına istinadla xəbər verir ki, ilin əvvəlində yayımlanan məlumatlara əsasən, son on il iqlim müşahidələrinin aparıldığı son ikiəsrlik dövr ərzində qeydə alınmış ən isti onilliklərdən biri kimi təsdiqlənib. Bu, antropogen (insan fəaliyyəti nəticəsində yaranan) iqlim dəyişikliyinin təsirini bir daha sübut edir. Belə dəyişikliklər yalnız ekstremal hava hadisələrinin intensivliyini və tezliyini artırmaqla kifayətlənmir, həm də onların başvermə vaxtında və məkanında ciddi dəyişikliklərə səbəb olur.

Məsələn, son illərdə Sibirdə genişmiqyaslı meşə yanğınları, Liviyada isə dağıdıcı daşqınlar baş verib. Halbuki bu cür hadisələr həmin bölgələr üçün tarixi baxımdan nadir sayılırdı. Ekstremal hava hadisələrinin başvermə vaxtı da dəyişir: onlar artıq il ərzində daha erkən, daha gec və ya daha tez-tez meydana çıxır, müddətləri uzanır, həmçinin mövsümi qanunauyğunluqları pozur. Bu isə qasırğa və digər hadisələrin ənənəvi olmayan mövsümlərdə baş verməsinə yol açır.

Beləliklə, əvvəllər görünməmiş və ya son dərəcə nadir hesab edilən hava hadisələri artıq müasir iqlim reallığının ayrılmaz hissəsinə çevrilib. Bu vəziyyətin gələcək nəsillər üçün yaratdığı risklər isə iqlim siyasətinin və adaptasiya tədbirlərinin vacibliyini bir daha gündəmə gətirir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi, üzvləri və Katibliyin əməkdaşları 62 saylı Kürdəmir Seçki Dairəsi dairə seçki komissiyasının sədri

**ƏBÜLFƏT MİKAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3570
Sifariş 961

Qiyməti 60 qəpik